'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

18 YANVAR ŞƏNBƏ 2025 № 02 (4203) Qiymıti - 60 qəpik www.kaspi.az



## "SİZ BİZİM ÜÇÜN NÜMUNƏSİNİZ"

Yanvarın 17-də Bakıda səfərdə olan Gürcüstanın Baş naziri İrakli Kobaxidze Prezident İlham Əliyevə təşəkkür edib: "Siz regionda fərqli bir Lidersiniz və bizim üçün də nümunəsiniz. Siz ölkənizə dövlətinizin mənafelərini qorumaqla rəhbərlik edirsiniz".

SƏHİFƏ 2-də



## PİLOTLARIN DANIŞIQLARINI MEDİAYA KİM ÖTÜRÜB?

2024-cü il dekabrın 25-də Aktauda qəzaya uğrayan Azərbaycana məxsus mülki təyyarə ilə bağlı həqiqətləri manipulyasiya etmək cəhdləri müşahidə edilir. Bu məsələdə Rusiya hakimiyyətinin nəzarətində olan bəzi media orqanları fəallıq göstərir.

SƏHİFƏ 10-da



## ALİMENT DAVALARINA SON QOYULUR

Uşağa görə aliment artıq minimum əməkhaqqının müəyyən misli ilə təyin ediləcək. Yeni qaydaların tətbiqindən sonra boşanma prosesində uşaqla ünsiyyət məsələsi də öz həllini tapacaq. Yeni bir iddianın qaldırılmasına, uzun-uzadı məhkəmə çəkişmələrinə ehtiyac qalmayacaq.

SƏHİFƏ 11-də

### 20 YANVAR FACİƏSİNİN BAŞ VERDİYİ TARİXDƏN 35 İL KEÇİR

# ŞƏHİDLƏRİMİZİ EHTİRAMLA ANIRIQ

Bu gün 20 Yanvar şəhidləri müqəddəs and yerimiz olan Şəhidlər Xiyabanından arzuladıqları Azərbaycana qürurla baxırlar. Çünki bu zirvəyə, möhtəşəm qələbəyə, bütöv Azərbaycana aparan mübarizlik yolunun başlanğıcını məhz onlar qoydular.




**AZADLIQ MÜBARİZƏSİNİN ŞƏHİDLƏRİ**

Azərbaycan xalqının azadlıq uğrunda mübarizliyini, qətiyyətini dünyaya tanıdan qanlı 20 Yanvar faciəsinin üzərindən 35 il keçir. Hər il "qara yanvar" adlandırdığımız bu gündə böyükdən kiçiyə milyonlarla Azərbaycan vətəndaşı Şəhidlər Xiyabanına axın edərək azadlıq mübarizəmizin ölməz qəhrəmanlarına ehtiramını bildirir.

**MÜSTƏQİLLİK YOLUNUN İLK MƏŞƏLİ**

20 Yanvar müstəqillik uğrunda mübarizə yolunda məşəl rolunu oynadı. Bu hadisələrdən sonra xalq hərəkatının mahiyyəti kəskin dəyişməyə başladı. Bir tərəfdən sovet hakimiyyətinin amansızlığı, digər tərəfdən isə Dağlıq Qarabağda separatizm ocağının yaranması xalqımızı müstəqillik əzmindən döndərə bilmədi.

SƏHİFƏ 3-də

### "ALLAH MƏNƏ TAPŞIRIB Kİ, BUNLARIN HAMISINI YAZ, QURTAR. BU, MİSSİYADIR".

# "MƏN BAŞDAN-AYAĞA KİNOYAM"




Kinomuzun fədakar tədqiqatçısı Aydın Kazımzadənin 85 yaşı tamam oldu. Onu "canlı kino ensiklopediyası" da adlandırırlar. Zarafat deyil, gəncliyindən bəri ömrünü bu sahənin araşdırmasına həsr edib, bilinməyən faktları, tanınmayan insanları tanıdıb.

Ən əsası, kinomuzun başlanğıc tarixi onun üzə çıxardığı faktlarla təsdiq olunub. A.Kazımzadə kinoşünas və peşəkar jurnalist kimi bu sahədə onlarla kitabın müəllifidir. Aydın müəllim bu gün də kinoya sədaqətindən əl çəkmir, yazır, yaradır...

SƏHİFƏ 8-9-da



## SURİYA ÜÇÜN XİLAS PLANI

Suriyada baş tutan hakimiyyət dəyişikliyindən sonra rəsmi Ankara Dəməşqlə dəniz sərhədlərinə dair saziş imzalamaq niyyətindədir. Belə bir saziş həm Suriyanın regiondakı imkanlarını, həm də Türkiyənin fəaliyyət sahəsini genişləndirəcək.

SƏHİFƏ 5-də



## HƏRBİ CİNAYƏTLƏRDƏ TƏQSİRLƏNDİRİLƏN ŞƏXSLƏRİN MƏHKƏMƏSİ BAŞLAYIB

Cinayət işi üzrə 531 mindən çox zərərçəkmiş və onların nümayəndələri var. Bu proses, ilk növbədə, Ermənistanın işğalçı, təcavüzkar ölkə kimi dövlət məsuliyyəti və digər qanunsuz əməllərinin məhkəmə yolu ilə təsbit olunmasına xidmət edəcək.

SƏHİFƏ 7-də



## TƏBİİSİ BAHA, UCUZU İSƏ ZƏRƏRLİ

Ölkəmizdə marqarin yağı istehsalı səkkiz faizdən çox artıb. Bunun səbəbləri ilə bağlı fikirlər birmənalı deyil. Lakin ekspertlər bildirirlər ki, istifadə olunan yağlar arasında ən zərərlisi elə marqarindir. Zərərli də olsa, insanlar məcbur olub ondan istifadə edirlər.

SƏHİFƏ 12-də

PETKİM

"Petkim" "İxracatın ulduzları" siyahısında

SƏHİFƏ 10-da



Paşinyanın təhlükəli tərəfdaşlıq oyunları

SƏHİFƏ 6-da



Plastik cərrahiyyədə anarxiya dövrü

SƏHİFƏ 13-də



Azərbaycan kinosunun Alen Delonu

SƏHİFƏ 15-də




Beş milyonluq gediş

SƏHİFƏ 16-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





# “SİZ BİZİM ÜÇÜN NÜMUNƏSİNİZ”

**Bakıda səfərdə olan Gürcüstanın Baş naziri İrakli Kobaxidze Prezident İlham Əliyevə təşəkkür edib: “Siz regionda fərqli bir Lidersiniz və bizim üçün də nümunəsiniz. Siz ölkənizə dövlətinizin mənafelərini qorumaqla rəhbərlik edirsiniz”.**



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycana səfər edib. Baş nazir səfər çərçivəsində Prezident İlham Əliyev tərəfindən də qəbul edilib. Təkbətək görüşdən sonra tərəflər mətbuata birgə bəyanatla çıxış ediblər.

### SON ON AYDA ÜÇÜNCÜ SƏFƏR

Prezident İlham Əliyev bildirib ki, bu, Gürcüstan baş nazirinin son on ayda ölkəmizə üçüncü səfəridir: “Bu fakt özlüyündə Gürcüstan-Azərbaycan əlaqələrinin nə qədər dərin və mənalı olduğunu göstərir.

Bu səfərin xüsusi əhəmiyyəti var. Çünki Gürcüstanda keçirilmiş parlament seçkilərindən sonra bu, Sizin ilk xarici səfərinizdir. Fürsətdən istifadə edərək, təmsil etdiyiniz “Gürcü Arzusu” Partiyasının seçkilərdəki qələbəsi münasibətilə Sizi bir daha səmimiyyətlə təbrik edirəm və Sizə, bütün komandanıza yeni uğurlar arzulayıram. Parlament seçkilərindən sonra ilk səfərinizi Azərbaycana həyata keçirməyiniz, təbii ki, Gürcüstan-Azərbaycan əlaqələrinin nə qədər yüksək səviyyədə olmasından xəbər verir”.

### QONŞULAR ÜÇÜN NÜMUNƏVİ MÜNASİBƏTLƏR

Dövlət başçısı bildirib ki, bu gün Gürcüstan-Azərbaycan əlaqələri bütün istiqamətlər üzrə uğurla inkişaf edir: “Hesab edirəm ki, bizim siyasi əlaqələrimiz bütün qonşular üçün nümunə ola bilər. İqtisadi sahədə yaxşı nəticələr var. Azərbaycan Gürcüstan iqtisadiyyatına 3,6 milyard dollar sərmayə qoyub”. Prezident İlham Əliyevin sözlərinə görə, energetika sahəsində iki ölkə arasındakı əməkdaşlıq həm ölkələrimiz üçün, həm daha böyük, geniş coğrafiya üçün xüsusi əhəmiyyət daşıyır: “Birgə həyata keçirdiyimiz neft-qaz layihələri bu gün bir çox ölkələrin enerji təhlükəsizliyinin əsasını təşkil edir. Təkcə onu demək kifayətdir ki, Gürcüstan tranziti vasitəsilə Azərbaycan hazırda 11 ölkəyə öz təbii qazını ixrac edir, ildən-ilə ixrac artır. Keçən il bu, 25 milyard kubmetrə çatmışdır və bunun 10 faizi - ümumi ixracımızın 10 faizi Gürcüstanın payına düşür. Mənə verilən məlumata görə, Gürcüstanın istehlak etdiyi təbii qazın 80 faizdən çoxu Azərbaycan mənşəlidir. Yəni, bu, doğrudan da çox böyük, xüsusi əhəmiyyətə malik olan layihədir və getdikcə bizim qaz ixrac coğrafiyamız genişlənəcək”.

## Yaşıl enerji və Orta Dəhliz

Yaşıl enerji layihəsindən də danışan Prezident deyib ki, layihə uğurla icra edilir. Bütün digər layihələr kimi, bu layihənin də uğurla başa çatması şansı böyükdür. “Sizinlə təkbətək söhbət əsnasında bağlantıları və Orta Dəhliz layihəsini müzakirə etdik. Bizim ölkələrimiz burada da yaxın tərəfdaşlar kimi fəaliyyət göstərirlər. Bizim müvafiq qurumlarımızın koordinasiya şəklindəki fəaliyyəti bu layihəni də əminəm ki, uğurla başa çatdıracaq. Burada, əlbəttə ki, biz bir çox qonşularla təmasda olmalıyıq və bu təmaslar var. Bu da böyük coğrafiyanı əhatə edən layihədir və yenə də Gürcüstanla Azərbaycan burada Avropa ilə Asiya arasındakı körpü rolunu uğurla oynayır”, - Prezident İlham Əliyev bildirib.



Dövlət başçısı qonşu ölkədə keçirilən parlament seçkilərinin nəticələrinə də münasibət bildirib: “Sizin partiyanızın qələbəsi bütövlükdə Cənubi Qafqazın bundan sonra sabit region olması üçün xüsusi əhəmiyyət daşıyır və biz bu qələbəyə Sizin dostunuz, qardaşınız kimi sevinirik”.

### STRATEJİ VƏ MİLLİ MARAQLARA HÖRMƏT

Gürcüstanın Baş naziri İrakli Kobaxidze isə Prezident İlham Əliyevə təşəkkür edib: “Siz regionda fərqli bir Lidersiniz və bizim üçün də nümunəsiniz. Siz ölkənizə dövlətinizin mənafelərini qorumaqla rəhbərlik edirsiniz. Bu gün burada olmaq məndə böyük şərəf və məmnunluq doğurur”.

Baş nazir bildirib ki, dostluğumuzun, qardaşlığımızın tarixi ənənələri var və bu qardaşlıq məhz strateji tərəfdaşlığın təməli üzərində dayanır: “Mən əminəm ki, bu tərəfdaşlıq gələcəkdə də eyni ruhda inkişaf edəcəkdir. Vacib məqam odur ki, biz hər birimizin strateji və milli maraqlarına hörmətlə yanaşırıq. Biz ölkələrimizin ərazi bütövlüyünü və suverenliyini qəti şəkildə dəstəkləyirik. Cənab Prezident, bu dəstəyə görə şəxsən Sizə və Azərbaycana təşəkkür edirəm”.

Baş nazir deyib ki, Cənubi Qafqazda sülh, sabitlik və təhlükəsizlik müstəsna əhəmiyyətə malikdir: “Bir daha Sizi əmin etmək istəyirəm ki, biz bu sabitliyi təmin etmək üçün maksimum səy göstərməyə hazırıq”.

## YENİ SƏFİRLİK BİNASI İNŞA OLUNACAQ

Qeyd edək ki, yanvarın 17-də Bakıda Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun və Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin sədrliyi ilə iki ölkə arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 10-cu iclası keçirilib. Vurğulanıb ki, ötən dövr ərzində Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığı keyfiyyətcə yeni mərhələyə yüksəlib. İki ölkə arasında fəal siyasi dialoq təqdir edilib, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəkdən məmnunluq ifadə olunub. Ərazi bütövlüyü məsələsində qarşılıqlı dəstək xüsusi vurğulanıb. Azərbaycan ilə Gürcüstanın birgə həyata keçirdiyi meqalayihələr uğurlu regional əməkdaşlıq nümunəsi kimi dəyərləndirilib. İclasın yekununda Baş nazirlər Əli Əsədov və İrakli Kobaxidze Azərbaycan ilə Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 10-cu iclasının Protokolunu imzalayıblar.

Azərbaycanın və Gürcüstanın baş nazirləri Əli Əsədov və İrakli Kobaxidze Gürcüstanın Bakıda səfirliyinin yeni binasının tikintisi üçün ayrılmış torpaq sahəsinə də baxış keçiriblər.

Torpaq sahəsi Azərbaycan Respublikası Prezidentinin göstərişinə uyğun olaraq Nazirlər Kabinetinin 2023-cü il tarixli Sərəncamı ilə ayrılıb. Torpaq sahəsi Bakı şəhəri, Yasamal rayonu, Nəriman Nərimanov prospekti ilə Bəşir Səfəroğlu küçəsinin kəsişməsində yerləşir.

# ŞƏHİDLƏRİMİZİ EHTİRAMLA ANIRIQ

**Bu gün 20 Yanvar şəhidləri müqəddəs and yerimiz olan Şəhidlər Xiyabanından arzuladıqları Azərbaycana qürurla baxırlar. Çünki bu zirvəyə, möhtəşəm qələbəyə, bütöv Azərbaycana aparan mübarizlik yolunun başlanğıcını məhz onlar qoydular.**



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycan xalqının azadlıq uğrunda mübarizliyini, qətiyyətini dünyaya tanıdan qanlı 20 Yanvar faciəsinin üzərindən 35 il keçir. Hər il "qara yanvar" adlandırdığımız bu gündə böyükdən kiçiyə milyonlarla Azərbaycan vətəndaşı Şəhidlər Xiyabanına axın edərək azadlıq mübarizəmizin ölməz qəhrəmanlarına ehtiramını bildirir.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ rəhbərliyinin birbaşa əmri ilə keçmiş sovet ordusunun hərbi bölmələri ağır texnikalarla Bakıya daxil olaraq azadlıq mübarizəsi uğrunda ayağa qalxan əliyalın Azərbaycan xalqına qarşı misli görünməmiş qətliam törədib. Bu bəşəri cinayət, dəhşətli terror aktı nəticəsində 147 Azərbaycan vətəndaşı şəhid olub, 638 nəfər yaralanıb və xəsarət alıb, 841 nəfər qanunsuz olaraq həbs edilib.

### SOVET BLOKADASINI DAĞIDAN ÇIXIŞ

Bu faciəni dünyadan gizlətmək və başqa don geyindirmək məqsədi ilə SSRİ rəhbərliyinin tətbiq etdiyi misli görünməmiş informasiya blokadasının yarılması, Azərbaycan xalqının başına açılan bu müsibətin beynəlxalq aləmə çatdırılmasında Ümummilli Lider Heydər Əliyevin böyük xidmətləri var. 20 Yanvar hadisələrindən dərhal sonra Ulu Öndər oğlu İlham Əliyevlə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək keçirdiyi mətbuat konfransında bu vəhşiliyi kəskin şəkildə pisləyib, əliyalın xalqa qarşı törədilən terroru hüquqa, demokratiyaya, insanlığa qarşı zidd aksiya adlandırıb. Məhz Heydər Əliyevin SSRİ-nin repressiya aparatına meydan oxuyaraq 20 Yanvar həqiqətlərini Moskvadan dünyaya bəyan etməsi faciə ilə bağlı Azərbaycan üzərindən qanlı oyunlar qurmaq istəyənlərin planlarını alt-üst edib.

Bu hadisələrə siyasi-hüquqi qiymətin verilməsi də Ulu Öndərin adı ilə bağlıdır. Ümummilli Lider Heydər Əliyev Azərbaycanın ən çətin anında xalqın arzusu və tələbi ilə ikinci dəfə ölkə rəhbərliyinə qayıtdıqdan sonra 1994-cü il yanvar ayının 5-də 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə bağlı Fərman imzalayıb. Fərmanda Milli Məclisə faciəyə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olunurdu. 1994-cü il mart ayının 29-da Heydər Əliyevin gərgin əməyinin nəticəsi olaraq "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul edilib. Bununla da Azərbaycan xalqının məruz qaldığı dəhşətli faciəyə - 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilmiş oldu.



## MÜSTƏQİLLİK YOLUNUN İLK MƏŞƏLİ

20 Yanvar Azərbaycan xalqının qəhrəmanlıq salnaməsi olmaqla yanaşı, müstəqillik uğrunda mübarizə yolunda məşəl rolunu da oynadı. Bu hadisələrdən sonra Azərbaycanda xalq hərəkatının mahiyyəti kəskin şəkildə dəyişməyə başladı. Bir tərəfdən sovet hakimiyyətinin amansızlığı, digər tərəfdən isə Qarabağda erməni terrorunun baş qaldırması, ərazilərimizdə separatizm ocaqlarının yaranması xalqımızı müstəqillik əzmindən döndərə bilmədi.

Bu gün Azərbaycan xalqı 20 Yanvar şəhidlərini ardıcıl beş ildir ki, qalib dövlətin vətəndaşları olaraq yad edir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz 20 Yanvar faciəsinə rəvac verən, bəlkə də bu hadisələrin əsas səbəbi olan "böyük Ermənistan" faşizm ideologiyasına sarsıdıcı zərbə endirdi. Dövlətimizin ərazi bütövlüyü, suverenliyi tam bərpa olundu. Xankəndidə, Şuşada, Kəlbəcərdə, Xocalıda Azərbaycan bayrağı dalğalandırıldı. Bütöv, müstəqil və azad, güclü Azərbaycan 1990-cı il 20 yanvarda sovet tanklarının qarşısına əliyalın çıxaraq qəhrəmanlıq dastanı yazan şəhidlərimizin son və ən böyük arzusu idi. Artıq bu arzu gerçəkləşib. Yenə də minlərlə şəhidlərimizin, qazilərimizin qanı-canı bahasına. Bu gün Azərbaycan öz şəhidlərini qürurla, başı dik, alnı açıq bir şəkildə ehtiramla anır.




## ONLAR AZƏRBAYCANA QÜRURLA BAXIRLAR

20 Yanvar şəhidlərinin övladları, sevdikləri bu gün sabit, inkişaf edən, ictimai-siyasi həmrəyliyin hökm sürdüyü güclü Azərbaycanda yaşayırlar. Bu gün 20 Yanvar şəhidləri müqəddəs and yerimiz olan Şəhidlər Xiyabanından arzuladıqları, xəyalları olan Azərbaycana qürurla baxırlar. Çünki bu zirvəyə, möhtəşəm qələbəyə, bütöv Azərbaycana aparan mübarizlik yolunun başlanğıcını məhz onlar qoydular. İşğala son qoyan, sərhədlərimizi bütövləşdirən Silahlı Qüvvələrimizdə xidmət edən vətənpərvər gənclik məhz onların qəhrəmanlıq dastanları ilə yetişdi. 30 illik işğal dövründə hər bir vasitə ilə möhkəmləndirilmiş, "keçilməz sədd" adlandırılan maneələri dəf etmək üçün daim irəliyə gedən Azərbaycan əsgərinin ölümə meydan oxumaq qüdrətinin mayasında da 20 Yanvar şəhidlərinin cəsarəti, qorxmazlığı, mətinliyi dayanırdı.

Həmin hadisələrdən 35 ilə yaxın bir müddət keçsə də, 20 Yanvar faciəsi unudulmur və unudulmayacaq. Çünki bir millətin qan yaddaşı silinməz, pozulmaz qələmlə yazılır. Azərbaycan xalqının qan yaddaşında əbədiyyətə qədər özünə yer edən 20 Yanvar faciəsi dövlət müstəqilliyimizin hansı çətinliklərlə, hansı qurbanlarla əldə edildiyinin bir örnəyidir.



# SÜLH VƏ SABİTLİYİ HƏDƏFLƏYƏN ORTAQ MARAQLAR



Prezident İlham Əliyevin Əbu-Dabiyə səfəri Azərbaycanın xarici siyasətindəki alternativ yanaşmaları gücləndirəcək. Həm Azərbaycan, həm BƏƏ Cənubi Qafqazda və Yaxın Şərqdəki strateji mövqelərini daha da möhkəmləndirmək imkanı əldə edəcəklər.

AQŞİN KƏRİMOV

Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə yanvarın 13-də bu ölkəyə işgüzar səfər edib. Elə həmin gün BƏƏ prezidenti ilə görüşərək müzakirələr aparıb və dövlət başçıları ikitərəfli münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğulayıblar.

Yanvarın 14-də isə Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışı və Zayed Dayanıqlılıq Mükafatının təqdimat mərasimi keçirilib, Prezident İlham Əliyev də tədbirdə iştirak edib.

İlham Əliyevin BƏƏ-yə səfəri zamanı aparılan danışıqlara daha geniş bucaqdan baxsaq, deyə bilərik ki, müzakirə portfelinə regional sülh, təhlükəsizlik, sabitlik, iqtisadi inkişaf kimi məsələlər daxil edilib.

## BƏƏ İLƏ AZƏRBAYCANIN VİZYONU

Siyasi münasibətlərin yüksək səviyyəsi, investisiya tərəfdaşlığı, turizm və mədəni mübadilədə daha geniş sahələrin əhatə edilməsi, energetika sahəsində əməkdaşlıq BƏƏ ilə Azərbaycanı regional təhlükəsizliyin inkişafına töhfə vermək yollarını da axtarmağa sövq edir. Əliyevin Nəhyan ilə danışıqlarına dair yayılan rəsmi informasiya həmin fikri gücləndirir.

Sitat: "Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin COP29-da iştirakını bir daha yüksək qiymətləndirən dövlətimizin başçısı qeyd etdi ki, bu mühüm beynəlxalq tədbirin uğurla başa çatdırılmasında Azərbaycanın Birləşmiş Ərəb Əmirlikləri ilə əməkdaşlığı və bu ölkənin konsepsiyası da öz rolunu oynayıb.

Dövlət başçıları münasibətlərimizin strateji tərəfdaşlıq xarakteri daşıdığını deyərək, Azərbaycan ilə BƏƏ arasında dostluq və qardaşlıq əlaqələrinin mövcud olduğunu vurğuladılar. Hazırda ölkələrimizdə sabitliyin və əmin-amanlığın hökm sürdüyü qeyd olundu.

Siyasi münasibətlərimizin mükəmməl səviyyədə olduğunu deyən Prezident İlham Əliyev iqtisadi-ticari əlaqələrin genişləndiyini qeyd etdi, Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanın bərpaolunan enerji sahəsinə qoyduğu investisiyaların da dostluğumuzun və tərəfdaşlığımızın nümunəsi olduğunu vurğuladı. Həmçinin ölkələrimizin ənənəvi enerji sahəsində yaxından əməkdaşlıq etdiyi qeyd olundu.

Söhbət zamanı ikitərəfli, regional, qlobal, həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı".



# ƏDALƏTƏ ƏSASLANAN TƏHLÜKƏSİZLİK MODELİ

Liderlərin söhbət zamanı regional və qlobal məsələlər barədə müzakirələr aparması iki dövlətin ədalətə əsaslanan təhlükəsizlik modeli qurmaq yolundakı birgə fəaliyyətini təqdim edir. BƏƏ də, Azərbaycan da münaqişələrin sülh yolu ilə həllinə tərəfdardırlar. Onlar beynəlxalq təşkilatlarda sabitliyi təmin etmək istiqamətindəki səylərində zəif və haqsızlığa məruz qalmış dövlətlərin maraqlarını müdafiə edirlər. BƏƏ Körfəz regionunda, Azərbaycan isə Cənubi Qafqaz bölgəsində mühüm strateji mövqe tutur ki, bu da sülh və təhlükəsizlik məsələlərində tərəfdaşlıq üçün əlavə imkanlar açır. Bu amillər BƏƏ-nin Cənubi Qafqazda, Azərbaycanın isə Yaxın Şərq regionundakı maraqlarına müsbət təsir göstərir.




## REGİONAL PROBLEMLƏRƏ OXŞAR BAXIŞLAR

Bir məqama diqqət yetirmək lazımdır ki, BƏƏ ilə yanaşı, Azərbaycan da İranın regionda sülh və təhlükəsizliyə təsirləri ilə əlaqədar narahatlıqlarını bölüşür. Digər tərəfdən, Azərbaycan və BƏƏ Fələstin münaqişəsinin həllinə yanaşmada oxşar yanaşmalar sərgiləyirlər, regionda təhlükəsizliyi pozmaqda maraqlı olan tərəflərin niyyətlərində gizlənən təhlükələri müzakirə predmetinə çevirirlər.

Proseslər Azərbaycan Prezidenti İlham Əliyevin geniş regional strategiyası ilə izah olunan sürpriz məsələləri də üzə çıxarır. Belə ki, Azərbaycan BƏƏ ilə qarşılıqlı əlaqələri ənənəvi müttəfiqliklərdən fərqlənən alternativ xətlə inkişaf etdirib özünün Cənubi Qafqaz və Yaxın Şərq maraqlarında sinxronluq qurur. BƏƏ-Azərbaycan əməkdaşlığı qlobal nüfuz uğurundakı mübarizələr fonunda fərqli bir model yaradır.

## CƏNUBİ QAFQAZ STRATEGİYASININ EFFEKTİVLİYİ GÜCLƏNƏCƏK

İlham Əliyevin BƏƏ-yə səfəri iki dövlətin əməkdaşlıq müstəvisində yeni bir mərhələyə qədəm qoyacağını göstərir.

Bu, öz növbəsində Azərbaycanın Cənubi Qafqaz strategiyasının effektivliyini gücləndirəcək və onu Yaxın Şərqdəki maraqlarını yenidən qiymətləndirməyə sövq edəcək. Bu kontekstdə Bakı ilə Əbu-Dabinin regional siyasətlərdə uyğunlaşması təbii proses olaraq tərəfləri Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumundan irəli gələrək yeni addımların atılmasına yönəldə bilər. Başqa sözlə desək, səfər Azərbaycanın xarici siyasətindəki yanaşmaları gücləndirəcək, Cənubi Qafqazda və Yaxın Şərqdəki strateji mövqeyini daha da möhkəmləndirəcək. Bu məntiqə uyğun olaraq Bakı ilə Əbu-Dabi ortaq təhlükələri effektiv şəkildə aradan qaldıran mexanizmlər hazırlaya bilər.

# SURİYA ÜÇÜN XİLAS PLANI

Ankara Dəməşqlə dəniz sərhədlərinə dair saziş imzalamaq niyyətindədir. Belə bir saziş həm Suriyanın regiondakı imkanlarını, həm də Türkiyənin fəaliyyət sahəsini genişləndirəcək.





AZƏR NURİYEV

Bu günlərdə dünyanın diqqəti Suriyadadır. Yeni keçid hökumətinin atdığı addımlar ölkənin gələcəyi ilə bağlı nikbin proqnozlara əsas verir. Ən mühüm olanı odur ki, hökumət PKK və onunla əlaqəli təşkilatlara qarşı yeni hərbi əməliyyatlara hazırlıq görür və Türkiyə ilə bu məsələdə aktiv əməkdaşlıq edir. Türkiyənin də mövqeyi bəllidir. Dəfələrlə bəyan edilib ki, PKK terrorçularının Suriyada mövcudluğu qəbuledilməzdir.

Ankara Suriyanın yeni administrasiyası ilə sıx əlaqə saxlayır və hər cür dəstək verəcəyini bəyan edir. Artıq Türkiyənin Dəməşqdəki səfirliyinin işi bərpa edilib.

Suriyada Bəşər Əsəd rejiminin devrilməsi Türkiyəyə təkcə siyasi deyil, həm də geo-iqtisadi faydalar gətirib. Ankara Suriya paytaxtındakı hakimiyyətə birbaşa təsir etmək imkanı əldə edib. Prezident Rəcəb Tayyib Ərdoğanın həyata keçirmək istədiyi əsas vəzifələr arasında qaçqınlar və kürd məsələsi var.

### DƏNİZ SƏRHƏDLƏRİ HAQQINDA SAZİŞ

Ankaranın prioritetlər siyahısına daha biri əlavə olunub. Bu, Türkiyə ilə Suriya arasındakı dəniz sərhədlərinə aiddir.

Bu sənədin imzalanması Şərqi Aralıq dənizində Türkiyənin maraqlarının qorunmasına gətirib çıxara bilər. Belə bir saziş həm Suriyanın regiondakı səlahiyyətlərini, həm də Ankaranın fəaliyyət sahəsini genişləndirəcək. Ankara Dəməşq ilə müstəsna iqtisadi zonaların (MİZ) sərhədlərinin müəyyənləşdirilməsi haqqında saziş imzalamağı da planlaşdırır. Bu yaxınlarda Türkiyənin nəqliyyat naziri Əbdülqadir Uraloğlu bildirib ki, ölkəsi Dəməşqdə daimi hökumət formalaşan kimi onunla dəniz demarkasiyası haqqında saziş imzalamağı düşünür. Ə.Uraloğlunun fikrincə, demarkasiya sazişi üzrə danışıqların uğurla irəliləməsi üçün başlıca şərt sabit siyasi vəziyyətdir. Reallaşdırılacağı təqdirdə saziş ölkələrə Aralıq dənizində karbohidrogen ehtiyatlarının kəşfiyyatı sahəsində "öz təsirlərini genişləndirməyə" imkan verəcək. Qərb mediası yazır ki, delimitasiya sahəsində Suriya ilə əməkdaşlıq çərçivəsində türklər suriyalılara ölkənin bərpasında dəstək və Aralıq dənizində limanların inkişafı da daxil olmaqla, iri infrastruktur layihələrinin həyata keçirilməsini təklif edirlər.

Türkiyənin dənizdə maraq dairələrinin həddinin müəyyənləşdirilməsi üzrə ikitərəfli sazişlərin həyata keçirilməsi təcrübəsi var. Yaxın keçmişdə - 2019-cu ilin noyabrında Ankara o zaman beynəlxalq səviyyədə tanınmış Liviyanın Milli Razılıq Hökuməti ilə oxşar saziş imzalayıb.

### YUNANISTAN TÜRKİYƏ-SURİYA YAXINLAŞMASINDAN NARAHATDIR

Ankaranın Aralıq dənizində növbəti saziş planı qonşularında, xüsusilə yunanlarda mənfi əhval-ruhiyyə yaradıb. Yunanıstan XİN hesab edir ki, Suriyadakı hazırki keçid vəziyyəti onunla Türkiyə arasında MİZ-in həddinin müəyyənləşdirilməsi haqqında müqaviləni qeyri-qanuni edir.



ERT-news telekanalı Yunanıstan XİN-dəki mənbələrə istinadən bildirir: "Biz bunu izləyirik. Biz Kipr, qonşu ölkələr və Avropa İttifaqı ilə daimi əlaqədəyik". Öz növbəsində, yunan güc strukturları Türkiyə və Suriya arasında mümkün sazişi Yunanıstan və Kiprə qarşı qeyri-dostluq addımı kimi qiymətləndirirlər.

Türk ekspertləri isə hesab edirlər ki, Yunanıstanın gələcək sazişə hər hansı müdaxilə etmək hüququ yoxdur. Onların fikrincə, saziş yalnız iki ölkəyə - Türkiyə və Suriyaya aiddir.

Müxtəlif qiymətləndirmələrə görə, saziş reallaşdırılacağı təqdirdə Türkiyə öz iqtisadi maraqlar zonasını Kipr adasının ərazisinin 3/4-ü qədər genişləndirəcək. Şərqi Aralıq dənizi qaz ehtiyatları ilə məşhurdur. Əsəd hökuməti Suriya sahillərində kəşfiyyat işlərinə başlamağı planlaşdırırdı. Bunun üçün 2013-cü ildə artıq Suriya bazarında fəaliyyət göstərən Rusiya şirkəti "Soyuzneftegaz"ı cəlb etmişdilər. Lakin 2015-ci ilin sentyabrında Rusiya HHQ-nin əməliyyatı başladıqdan sonra təhlükəsizlik səbəbindən fəaliyyət dayandırılmışdı. Yeni hakimiyyət dövründə suriyalılar bu layihəyə qayıda, Kipr ətrafında aktiv geoloji kəşfiyyat aparan türklər isə Dəməşqi dəstəkləyə bilər.

## HİCAZ DƏMİR YOLU BƏRPA EDİLƏCƏK

Enerji Türkiyə və yeni Suriyanın ümumi maraqlarının yalnız bir hissəsidir. Ötən həftə Ərdoğan bildirmişdi ki, Ankara Dəməşqlə ticarət, energetika və müdafiə daxil olmaqla, bütün sahələrdə əlaqələri yaxşılaşdıracaq. Nəqliyyat naziri Uraloğlu jurnalistlərlə görüşdə tarixi Hicaz dəmir yolunun Suriyaya gedən hissəsini bərpa edərək Türkiyənin dəmir yolu xətlərini yenidən Dəməşqlə birləşdirəcəyini vəd etmişdi.

"Biz vəziyyəti tez qiymətləndirəcək və ilk mərhələdə Dəməşqlə dəmir yolu əlaqəsinin bərpası üçün addımlar atacağıq. Türkiyədən Hicaz bölgəsinə uzanan dəmir yolu hissələri var. Bilirik ki, bu xətlər daha böyük şəbəkənin bir hissəsi kimi uzun müddət işləməyib. 2009-2010-cu illərdə biz oraya sərnişin qatarları göndərirdik", - deyə Uraloğlu bildirib.

Beləliklə, Suriya ilə dəniz sərhədlərinin demarkasiyası Türkiyəyə Aralıq dənizində öz təsirini gücləndirməyə imkan verəcək. Geniş mənada bu, türk admiralı Cem Gürdeniz tərəfindən irəli sürülmüş və Bahçeşehir Universitetində Dəniz və Qlobal Strategiyalar Mərkəzinə rəhbərlik edən admiral Cihat Yaycı tərəfindən dövlət doktrinasına çevrilmiş "Mavi Vətən" strategiyasının bir hissəsidir.

Dəməşqdəki yeni hakimiyyət üçün isə sözügedən saziş Suriyada iqtisadi vəziyyətin yaxşılaşdırılması istiqamətində bir addım ola bilər. Ehtimal olunan qaz ehtiyatlarının tapılması və mənimsənilməsi ölkəyə böyük gəlirlər gələcəyi deməkdir. Saziş ümumilikdə Türkiyə və Suriyanı daha da yaxınlaşdıracaq, onların ticarət-iqtisadi əlaqələrinin aktivləşməsinə stimul verəcək.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# PAŞİNYANIN TƏHLÜKƏLİ TƏRƏFDAŞLIQ OYUNLARI

Ermənistanın düşünülməmiş addımının məhsulu olan ABŞ ilə strateji tərəfdaşlıq sazişi Cənubi Qafqazı ciddi təhlükə ilə üz-üzə qoya bilər. Son vaxtlar münasibətlərini çözə bilməyən böyük güclər üçün yeni qarşıdurma cəbhəsinin regionumuzda açılma təhlükəsi var.



RÜSTƏM QARAXANLI



Bayden hökumətinin son günlərində Ermənistanla imzaladığı strateji münasibətlərə dair saziş İrəvan üçün təhlükəsizlik qarantı olmaqdan daha çox "ayı xidməti" göstərəcək. ABŞ-nin bu addımı demokratlar administrasiyasında ənənəvi oyunçular olan Rusiya və İranla gərgin münasibətlər fonunda bölgədə möhkəmlənmək cəhdi ilğımı yarada bilər. Ancaq fizikanın təsir əks-təsirə bərabərdir qanunu geosiyasətdə də keçərlidir: Rusiyanın onillər boyu "oylağ"ı olmuş Ermənistanı asanlıqla güzəştə gedəcəyini gözləmək əbəsdir. Üstəlik, unudulmamalıdır ki, Blinken-Mirzoyan sazişinin yanvarın 20-də səlahiyyətlərinə başlayacaq Donald Tramp hakimiyyəti üçün sadəcə geosiyasi ballast olma ehtimalı da az deyil...

Ermənistan kimi kiçik, siyasi alətləri və iqtisadi resursları kasad olan ölkələrin belə addımları uşağın odla oynamasını xatırladır. Son dörd il ərzində İrəvanın Cənubi Qafqaz üçün tamamilə yad ünsür olan Fransa ilə limiti aşmış münasibətlərinin hansı regional gərginliyə səbəb olduğu göz önündədir.

### İFLASA UĞRAYAN FRANSIZ MƏSULİYYƏTİ

ABŞ-Ermənistan razılaşması fonunda İrəvanın Parislə təhlükəli flirtinin üzərində dayanmağımız təsadüfi deyil. Əgər Paşinyan hökuməti özünə sanballı himayədar axtarırsa, onu regiondan çox-çox uzaqlarda tapırsa, bu halda öz problemlərini həll etmək niyyəti ilə yanaşı, bu coğrafiyanın tarixi aktorlarını da öz üzərinə qaldırmış olur. Bu azmış kimi, belə təmaslar bütün region üçün neqativ rol oynayır. Çünki Fransanın Ermənistanla mübhəm münasibətləri onun İrəvana arxa durmaq niyyətindən daha çox Cənubi Qafqazda möhkəmlənmək istəyinin göstəricisidir. Makron hakimiyyəti illərində Parisin hər hansı belə addımının müsbət nəticələrə səbəb olduğunu iddia etmək isə olduqca çətindir.

### TRAMPIN GÜNDƏMİNDƏ OLMAYAN ERMƏNİSTAN

Tramp administrasiyasının İrəvanla imzalanmış sənədə xüsusi önəm verəcəyi barədə ümidlər dumanlı görünür. ABŞ-nin yeni prezidenti xarici siyasət prioritetlərini artıq elan edib və onun gündəmində çox güman ki, Ermənistan kimi dövlət, "erməni problemləri" kimi hədəf yoxdur. Bununla belə, Blinken-Mirzoyan anlaşmasının ən azı bir fatal fəsadı qaçılmazdır: bölgə-mizdə siyasi, enerji və logistik maraqları olan Vaşinqtonun Moskva ilə münasibətlərinin çəpləşəcəyi daha bir region Cənubi Qafqaz ola bilər. Bölgənin güc qütblərinin çəkişmə arenasına çevrilmə ehtimalı region təmsilçiləri üçün təhlükəli tendensiyadır. Hər zaman müstəqil siyasət yürüdən Azərbaycanla yanaşı, milli maraqlarına görə Qərblə münasibətləri pisləşən Gürcüstanın da bu ssenaridən əziyyət çəkə biləcəyi istisna deyil. Bakı ilə yanaşı, Tbilisi də bölgənin qatıldığı qlobal transmilli layihələrin aktiv iştirakçısıdır. Ənənəvi enerji daşıyıcılarının Qərbə tranziti prosesində Gürcüstanın vacib rolu danılmazdır. Tbilisi hazırda aktual olan Orta dəhliz kimi qlobal logistik layihədə, habelə Azərbaycanın bərpa olunan enerji ehtiyatlarının Avropa bazarlarına daşınması prosesində də həlledici bəndlərdən biri kimi çıxış edir. Belə bir reallıqda Paşinyan Ermənistanı bölgənin çiçəklənməsinə xidmət edən layihələrin iştirakçısı etməkdənsə, region üçün təhlükəli çağırışların önündə getmək yolunu seçib.

## ABŞ hərbçiləri ilə üz-üzə qalacaq İran



Bu il Ermənistanın Rusiya ilə ticarət dövriyyəsi 11 milyard dollara çatıb. Son bir il ərzində bu statistika rəsmən üç dəfəlik artım nümayiş etdirib. Bu rəqəmin nəyin hesabına "şişməsi" hamıya məlumdur. Ancaq mənbəyindən asılı olmayaraq, bu artım Ermənistan büdcəsində və sıravi erməninin rifahında özünü göstərir. İrəvanın ABŞ və ya Parislə bu müstəvidə öyünəcəyi heç nəyi yoxdur. Fransa ilə dövriyyə 200 milyon dollara çatmır. ABŞ ilə də bir o qədər. Ermənistanın ixrac əməliyyatlarının 70-80 faizi Rusiya və MDB dövlətləri ilə ticarətin üzərinə düşür. Rusiya mavi yanacağı Ermənistana dünya qiymətlərindən azı üç dəfə ucuz satır. İrəvanın Vaşinqtonla strateji tərəfdaşlıq sazişinə reaksiya olaraq, Moskvanın bu amillərdən Paşinyana qarşı təzyiq rıçaqı kimi istifadə edəcəyi şübhəsizdir.

Rusiyanın hərbi bazası ən azı 2040-cı ilədək Ermənistandadır. Moskva dəfələrlə bəyan edib ki, hərbi dayağını ləğv etmək niyyətində deyil. Paşinyan isə ABŞ ilə hərbi niyyətli saziş imzalayır, sərhədlərini də faktiki olaraq amerikalı hərbçilərə həvalə edir. Bunun Rusiya ilə yanaşı, İranda hansı narahatlıq doğurduğunu təsəvvür və ehtimal etmək çətin deyil. Tehrandan hadisələrin səssizlik rejimində müşahidə olunması aldadıcı rəy yaratmamalıdır. Zəngəzuru özünün "qırmızı cizgi"si sayan, burada konsulluq açan, Ermənistanı Avropaya nəfəslik qismində görən İranın yük avtomobillərinin sərhəd-keçid məntəqəsində amerikalı hərbi təlimatçıların sərt baxışları altında keçmə səhnəsini görmək iranlı məmurlar üçün xoş olmayacaq mənzərədir...

İran-ABŞ gərginliyi mövzusunu bir qədər də dərinləşdirsək, Vaşinqtonun Ermənistandakı mövcudluğu Tehran ətrafındakı basqı dairəsinin daha da darlaşması deməkdir. İran belə demək mümkündürsə, Azərbaycan və Türkiyədən savayı hər tərəfdən düşmənlə əhatələnmiş duruma düşür. 2020-ci ildən bu yana "kənar hərbi mövcudluq qəbuledilməzdir" deyib duran, az qala hər ay Azərbaycanla sərhəddə hərbi təlimlər keçirən İran "qırmızı cizgi"si saydığı Zəngəzurda Amerika hərbçiləri ilə üz-üzə qalmaq astanasındadır.

Ermənistanının düşünülməmiş addımının məhsulu olan tələsik strateji tərəfdaşlıq sazişi Cənubi Qafqaz bölgəsini ciddi təhlükə ilə üz-üzə qoya bilər. Üç ildir Ukraynada münasibətlərini çözə bilməyən böyük güclər üçün yeni qarşıdurma cəbhəsinin regionumuzda açılma təhlükəsi yerli xalqlara, əsasən də erməni xalqına ürəkaçan perspektivlər vəd edə bilməz.

# HƏRBİ CİNAYƏTLƏRDƏ TƏQSİRLƏNDİRİLƏN ŞƏXSLƏRİN MƏHKƏMƏSİ BAŞLAYIB



Cinayət işi üzrə 531 mindən çox zərərçəkmiş və onların nümayəndələri var. Bu proses, ilk növbədə, Ermənistanın işğalçı, təcavüzkar ölkə kimi dövlət məsuliyyəti və digər qanunsuz əməllərinin məhkəmə yolu ilə təsbit olunmasına xidmət edəcək.

Yanvarın 17-də Ermənistan dövləti və onun silahlı qüvvələri, o cümlədən Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma "Dağlıq Qarabağ respublikası" və onun qanunsuz silahlı birləşmələri tərəfindən Azərbaycana və Azərbaycan xalqına qarşı sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibə aparma, soyqırımı, əhalini məcburi köçürmə, təqib, işgəncə, hərbi soyğunçuluq və digər qanunsuz əməllərə dair cinayət işi üzrə açıq məhkəmə prosesi başlayıb.



### MƏHKƏMƏ QARŞISINDA 15 NƏFƏR DAYANIR

Xatırladaq ki, hakim qarşısında Ermənistan Respublikası və onun silahlı qüvvələri, o cümlədən Ermənistanın yaratdığı qanunsuz "Dağlıq Qarabağ respublikası" və onun qanunsuz silahlı birləşmələr tərəfindən törədilən cinayətlərdə ittiham olunan 15 nəfər - Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan Davit Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beglaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri dayanır.

AZƏRTAC xəbər verir ki, Bakı Məhkəmə Kompleksində yerləşən Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi, Camal Ramazanov və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən hazırlıq iclasında təqsirləndirilən şəxslər erməni dilində tərcüməçilərlə, habelə müdafiə üçün vəkillərlə təmin edilib.

İş üzrə təqsirləndirilən şəxslərin müdafiəçiləri elan olunub. Məhkəmədə dövlət ittihamçısı qismində 6 nəfər prokurorluq əməkdaşı, Azərbaycan dövləti adından zərərçəkmiş qismində isə Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov iştirak edib.

Bildirilib ki, cinayət işi üzrə 531 mindən çox zərərçəkmiş və onların nümayəndələri var.

## "İndi bu bəyanata görə təəssüflənirəm, üzrxahlıq edirəm"



Fasilədən sonra A.Harutyunyan məhkəməyə müraciət edərək çıxış etmək istədiyini deyib. Hakim ona söz verib. O, bəyanatla çıxış edərək bildirib ki, 44 günlük müharibə zamanı Gəncənin raketlərlə vurulması ilə bağlı onun bəyanatı olub və buna görə təəssüflənir: "Azərbaycan xalqında belə bir fikir var ki, bu əmri mən vermişəm. Bu qərar mənim tərəfimdən verilməyib. Bəli, mənim bu hadisə ilə bağlı bir bəyanatım var idi. İndi bu bəyanata görə təəssüflənirəm, üzrxahlıq edirəm. Mənim elə bir hüququm, elə bir səlahiyyətim, rəy bildirməyə də imkanım olmayıb. Bu bəyanatı vaxtilə niyə vermişəm, onu da istintaq zamanı verdiyim ifadəmdə izah etmişəm".

Daha sonda məhkəmə prosesi yanvarın 21-dək təxirə salınıb.

## Vardanyanın vəkili iki vəsatət verib

Daha sonra Ermənistan vətəndaşı olan, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə və digər maddələrlə təqsirləndirilən Ruben Vardanyanın da məhkəmə prosesinin hazırlıq iclası keçirilib. Bakı Məhkəmə Kompleksində Bakı Hərbi Məhkəməsinin yeni inzibati binasında eyni hakimlərdən ibarət tərkibdə açıq keçirilən ilkin iclasda Ruben Vardanyanın anket məlumatları dəqiqləşdirilib.

Ruben Vardanyan özünün seçdiyi müdafiəçi və rus dilinə tərcüməçi ilə təmin olunub. Məhkəməyə sədrlik edən hakim Zeynal Ağayev Ruben Vardanyana qanunvericiliyin tələblərini, o cümlədən təqsirləndirilən şəxs kimi hüquq və vəzifələrini, habelə etiraz hüququnu izah etdikdən sonra Vardanyandan vəsatətinin olub-



olmamasını soruşub. R.Vardanyan və müqavilə əsasında hüquqi yardım göstərən müdafiəçisi iki vəsatət verib. Onlardan biri R.Vardanyan barəsində cinayət işinin Azərbaycan xalqına qarşı ağır cinayətlərin törədilməsində ittiham olunan erməniəsilli 15 şəxsin barəsində işə birləşdirilərək bir icraatda baxılması, digər vəsatət isə cinayət işinin materialları ilə tanış olmaq üçün təqsirləndirilən şəxsə əlavə vaxtın verilməsi barədə olub.

Dövlət ittihamını müdafiə edən prokuror cinayət işlərinin bir icraatda birləşdirilməsi barədə vəsatətə etirazını bildirərək məhkəmədən təmin olunmamasını, cinayət işi ilə tanış olmaq üçün əlavə vaxt verilməsinə dair vəsatətin isə təmin olunmasını məhkəmədən xahiş edib.

Azərbaycan Respublikasının Cinayət Prosessual Qanunvericiliyinə əsasən, məhkəmə icraatı zamanı cinayət işlərinin eyni icraatda birləşdirilməsi nəzərdə tutulmadığından məhkəmə tərəfindən bu vəsatət təmin olunmayıb.

İbtidai istintaq zamanı R.Vardanyana bildiyi dildə cinayət işi materialları ilə tanış olub öz müdafiəsinə hazırlaşmaq üçün kifayət qədər vaxt verilsə də, məhkəmə təqsirləndirilən şəxsin xahişini nəzərə alaraq vəsatətin təmin olunması barədə qərar qəbul edib və ona iş materialları ilə tanış olmaq üçün əlavə 10 gün vaxt verib.

Məhkəmənin hazırlıq iclası yanvarın 27-də davam edəcək.

Kinomuzun fədakar tədqiqatçısı, ömrünü bu sahənin araşdırmasına həsr etmiş Aydın Kazımzadənin 85 yaşı tamam oldu

# “MƏN BAŞDAN-AYAĞA KİNOYAM”




SÖHBƏTLƏŞDİ

Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

**Aydın Kazımzadə:** “Allah mənə tapşırıb ki, bunların hamısını yaz, qurtar. Bu, missiyadır. Özümdən asılı olmadan edirəm. Mənə sanki vəhy gəlib”.

Kinomuzun fədakar tədqiqatçısı Aydın Kazımzadənin 85 yaşı tamam oldu. Onu “canlı kino ensiklopediyası” da adlandırırlar. Zarafat deyil, gəncliyindən bəri ömrünü bu sahənin araşdırmasına həsr edib, bilinməyən faktları, tanınmayan insanları tanıdıb. Ən əsası, kinomuzun başlanğıc tarixi onun üzə çıxardığı faktlarla təsdiq olunub.

A.Kazımzadə kinoşünas və peşəkar jurnalist kimi bu sahədə onlarla kitabın müəllifidir. Aydın müəllim bu gün də kinoya sədaqətindən əl çəkmir, yazır, yaradır...

## ÖMÜRDƏN DÜŞƏN KƏRPİCLƏR

● **Aydın müəllim, 85 yaş ömrün həssas çağıdır. Özünüzü necə hiss edirsiniz?**

● Şükür Allaha... Ayağımda ağrılar olmasa daha yaxşı olaram. Qocalıqdır. Ömür gedir....

● **Demək istəyirsiniz, yaş öz işini görür?**

● Əlbəttə, yaş öz işini görür. Allah insanın elə yaradıb ki, o, ömrünün axırına qədər eyni vəziyyətdə qalmır. Ona görə deyirlər ki, insan 40 yaşına qədər inkişaf edir. Necə ki, ev tikəndə bünövrə qoyursan, insan da elədir. Bünövrə insanın yaranmasıdır. Sonra kərpiclər qoyulur. Bunlar da insan bədənindəki hüceyrələrdir. İnsan inkişaf edir və 40 yaşına çatır. Bu yaşda ev tikilir, qurtarır, insan da inkişafdan dayanır. Hər kərpic düşdükcə ev tökülüb gedir və nə vaxtsa o ev artıq öz ömrünü başa vurur. Artıq onun yerinə başqasını tikirlər, amma həmin insanı yenidən yarada bilmirlər.

● **Amma şükür ki, siz yazırsınız, yaradırsınız...**

● Məni yazmaq saxlayır. İnsan təqaüdə çıxandan sonra bekar qalırsa, bu, onu məhvə aparır. Çünki işsiz qalanda darıxır, nə edəcəyini bilmir. Bir də var ki, təqaüdə çıxandan sonra işləyəsən. İnandırım sizi, mənim nə şənbəm, nə bazar günüm var. Yuxudan duran kimi bütün prosedurları yerinə yetirirəm. 30 dəqiqə idman edirəm, səhər yeməyi yeyirəm, dərmanlarımı içirəm, həyətdə gəzirəm: bu, mənim rejimimdir. Addımölçənlə gündə 3 km gəzirəm, sonra iş stolumun arxasına keçirəm. Həkim dedi ki, səhər gündə bir km-dən az gəzsən, ayaqların əməliyyat olunacaq. Mən də həkim deyənə əməl edirəm. Artıq bu, mənim həyat tərzimdir. Nə qədər ki həyat yoldaşım vardı, hər şey başqa idi. Hər işi o həll edirdi, mənim dünyadan xəbərim yox idi. İndi evdə olsaydı, sizin üçün də stol açacaqdı. Amma o, artıq yoxdur... Mən də tək yaşayıram. Əhmədli qəsəbəsində yaşayırdım. İndi köçüb 8-ci km qəsəbəsinə gəlmişəm. Qonşu blokda nəvəm yaşayır. Sağ olsun, Prezident mənə ev hədiyyə etdi. Günümü o evdə nəvə-nəticələrimlə keçirirəm. Yazı yazmaq üçün buraya gəlirəm. Bilirsinizmi, mən çox çətin həyat yaşamışam. Nə atam, nə arxamda duran bir başqa kimsəm olub. Anam iki oğul böyüdüb və hər ikimizi oxudub. Çətin dövr idi. Mən yeddi illik məktəbi bitirmək haqqında sənəd aldım və gecə məktəbinə getdim, gündüzlər isə işləyib ailəyə kömək edirdim. Xarrat sexində işləyirdim. İşim çox ağır idi. Gecə məktəbinə gedəndə məni yuxu basırdı. Universitetin jurnalistika fakültəsinə daxil oldum. Həmçinin “Lenin tərbiyəsi uğrunda” qəzetində korrektor, daha sonra ədəbi işçi işləyirdim. 30 manat əmək haqqı və institutdan da o qədər təqaüd alır, evə kömək edirdim. Dərsdən sonra redaksiyaya qaçır, axşam də gəlib dərs oxuyurdum. Beş ilim belə keçdi. 60-70-ci illərdə “Bakı” qəzetində kino ilə bağlı məqalələrim çap olunurdu. Bu yolla gəlib kinoya düşdüm. “Kinoprokat”dakı kino bülleteni şöbəsində fotoqraf kimi işə başladım. Bir müddət sonra həmin reklam bülletenini kino qəzetinə çevirdim. 1966-cı ildə “Film” jurnalının nəşrinə icazə aldıq. Jurnalın və qəzetin ölkə üzrə böyük abunəsi vardı. Ona görə Azərbaycanda kino mətbuatının yaradıcısı olmağımla fəxr edirəm. Bu minvalla bütün SSRİ-ni gəzdim, BAM-a qədər gedib çıxdım.

*“Azərbaycanda kino mətbuatının yaradıcısı olmağımla fəxr edirəm. Bu minvalla bütün SSRİ-ni gəzdim, BAM-a qədər gedib çıxdım.”*

## “MƏN ELƏ ŞEYLƏR BİLİRƏM Kİ...”

● **Şkafdakı qovluqlar nə haqdadır? Onları arxivə vermək haqda düşünürsünüzmü?**

● Yox, düşünmürəm. Orada bunları dağıdarlar. Nəticələrimə əmanət edəcəyəm. Birinin 9, birinin 5 yaşı var. Hər ikisi dram dərnəyinə gedir. Böyük nəticəm, həmçinin piano məktəbində oxuyur. Bunlar mənim 1963-cü ildən, kinoya gəldiyim gündən bu günə qədər yığdığım arxiv materiallarıdır. Bizim redaksiyamız sovet dövründə bütün qəzetləri alırdı. Kino ilə bağlı hansı material gedirdisə onu kəsir, tarixlərini yazırdılar. Sibirdən, BAM-dan kino ilə bağlı materialları kəsib göndərirdilər. Mən də onları toplayırdım. Özüm də “Sovet ekranı”, “Kino incəsənəti” jurnallarına abunə idim. O jurnallarda ölkəmizə aid nə material vardısa kəsib götürürdüm. Həmçinin bu arxivdə bizim müxtəlif kino adamları haqqında materiallar var. Adil İsgəndərov, Rüstəm İbrahimbəyov, Eldar Quliyev, Leyla Bədirbəyli, Rasim Balayev, Ağarza Quliyevə və başqalarına aid qovluqlar var. Elə adamlar var ki, haqlarında 3-4 qovluq toplamışam. Hüseyn Seyidzadə haqqında kitab yazmalı idim, amma yiyə duran olmadı. Kitabı yazıb Mədəniyyət Nazirliyinin nəşriyyat şöbəsinə verdim. “Sən yaz, göndərək yoxlatdıraq, görək lazımdır, yoxsa yox” dedilər. Dedim “37 kitab çap etdirmişəm, indi lazım olmadı? Mən başdan-ayağa kinoyam. Kino mətbuatının əsasını qoymuşam”. Ona görə “Ekran arxasındakı həyat” kitabını öz xərcimlə çap etdirdim. Nəşrə altı min manat xərclədim. Satışa da qoymadım. Bir var, kitab yazanda hansısa mənbələrdən istifadə edəsən, bir də var, mən bu adamlarla oturub-durmuşam. 1963-cü ildə ilk dəfə kinostudiyanın qapısından daxil olanda Tofiq Tağızadə, Muxtar Dadaşov və səs operatoru Ağahüseyn Kərimovu gördüm. Mən Tofiq Tağızadə ilə görüşməyə gəlmişdim. 23 yaşım vardı. Vaxt keçdikcə kinostudiyanın bütün nəhəng insanları ilə tanış oldum. Sonra da onlardan ayrıla bilmədim. Onlarla dostlaşdıqca aramızda ata-bala münasibəti yarandı. Onların isti münasibəti məni tamamilə kinostudiyaya bağladı. Onlar dünyalarını dəyişdikcə hər dəfə elə bilirdim ki, atamı itirirəm.

İndi siz necə mənim evimə gəlmisiniz, mən də on illərlə bu cür insanların evində olmuşam. Mən elə şeylər bilirəm ki...

● **Kino adamlarının da tanımadığı adamları deyirsiniz yəqin...**

● Siyahımda nə qədər “ilklər” var. Elə adamlar var ki, heç kino adamları onları tanımır. İki qadın var ki, onlar həyat yoldaşları haqqında danışanda göz yaşları tökürdülər. Biri Həsən Seyidbəylinin həyat yoldaşı idi, biri də Mirzəquliyevin - “Məşədi İbad”da Sərvəri oynayan aktyorun həyat yoldaşı. 20-ci illərdən kinoda işləyən Mikayıl Mikayılovun İçərişəhərdəki evində olmuşam. Onun gözləri tutulmuşdu. Azərbaycanın ilk kinooperatoru İsmixanovu tapdıq. “Gəlin, onun yaşadığı evə bir lövhə vuraq. Qoy gələcək nəsil bilsin ki, ilk filmlərimiz harada istehsal olunub”, - deyə təklif etdim. Filmlərin ilk nümayiş olunduğu yeri də tapmışam. İlk dəfə Məsumə Rzayeva adlı bir alimimiz qəzetdə oxumuşdu ki, Mişon adında bir nəfər Bakıda kino çəkib. Mən onun kimliyini araşdırmağa başladım. Öyrəndim ki, Aleksandr Mixaylovuç Mişon fransız deyil, rusdur. 1879-cu ildə ailəsi ilə Bakıya gəlib və 35 il burada yaşayıb. O dövrün qəzetlərini araşdırarkən onun haqqında yazılar tapdım. Məlum oldu ki, bu adam təkcə kinooperator olmayıb. Burada nəşriyyat açıb, jurnal çıxarıb, filmlər çəkib, fotoatelyesi olub. “Kaspi” qəzetindən onun foto dərnəyində dərs dediyi proqramı da tapdım. İlk dəfə filmləri nümayiş etdirdiyi yeri, atelyesini də aşkarladım. Araşdırmalar zamanı çox maraqlı faktlar üzə çıxdı. Məlum oldu ki, Mişon 1898-ci il iyunun 21-də çəkdiyi filmləri eksperiment kimi Vasil-Vyatskinin teatr sirkində göstərib ki, görsün, camaat necə reaksiya verir. Avqustun 2-də həmin teatr sirkdə “Bibiheybətdə neft fontanı yanğını”, “Gəminin yola düşməyi”, “Şəhər bağında xalq gəzintisi” kinosüjetlərini nümayiş etdirib və böyük uğur qazanıb.

Amma o filmlərlə bağlı heç yerə lövhə vurulmayıb. Məsələn, 1915-ci ildə Bakıya gələn “Piron qardaşları” studiyasında “Neft və milyonlar səltənətində” filmini çəkiblər. O film “Malakan bağı”nın yerində çəkilib. Həmin yerə bir lövhə vurmaq olar. Xarici ölkələrdə belə yerlər turizm marşrutuna çevrilir. Bizdə nəinki turistlər, heç özümüzünkülər bilmir. Amma görürəm ki, bu heç kəsin vecinə deyil. Milli kinomuzun tarixinin üzə çıxarılması ilə bağlı başım çox ağrıdı. Üstümə düşənlər çox oldu. Səndən qabaq bunları yazanlar var dedilər. Dedim ki, var, amma sübut yoxdur.






Fotolar: Arif Quluzadə/Global Media Group

## “Nə yaz, nə oxu, nə də televizora bax”

● **Gərək ki, “Azərbaycan Kino Salnaməsi”nin birinci cildi çap olundu. Bəs ikinci cild nə vaxt işıq üzü görəcək?**

● Bəli, birinci cild çap olundu. Bu, 1898-2018-ci illəri əhatə edir. İkinci cildin materialları 10 aydır ki, Mədəniyyət Nazirliyinə təqdim olunub. Film Fondun rəhbəri Cəmil Quliyev nazirliyə məktub da yazaraq materialı göndərib. Amma heç kəs maraqlanmır. Zəng vuranda da telefona cavab verən yoxdur ki, bir söz soruşasan.

● **Salnamədə müasir kino dövrü də yer alıb?**

● 2018-ci ilə qədər olan dövr əhatə olunub. Allah mənə ömür versə, ondan sonrakı dövrü da yazacam. Amma kim bunu çap edəcək? Kim maraqlanacaq? Onu bilmirəm. 2018-dən sonra müharibə dövrüdür - Zəfər dövrü. O cümlədən, cənab Prezidentin Azərbaycanda kino sənətinin inkişaf etdirilməsi ilə bağlı Sərəncamına əsasən Azərbaycan Kino Ensiklopediyasının birinci cildi çap olunub. Hazırda ikinci cild üzərində işləyirəm. Allah mənə nə qədər ömür verib, o qədər də yaşayacam. Allah mənə tapşırıb ki, bunların hamısını yaz, qurtar. Bu, missiyadır. Özümdən asılı olmadan edirəm. Mənə sanki vəhy gəlib. Saatın zəngini səhər 7-yə qurmuşam. Bunları yazmaq lazımdır. Haqqında yazılacaq adamlar var. Sadəcə, çatdıra bilmirəm. Səhhətim mane olur. Kinoda bilirsiniz nə qazandım? Açıq ürək əməliyyatına məcbur qaldım və hər iki gözüm kor oldu. Hər ikisini əməliyyat etdilər. Dedilər ki, nə yaz, nə oxu, nə də televizora bax. Mən də tərsinə etdim. Yazdım, oxudum və televiziyada xəbərlərə və Azərbaycan filmlərinə baxıram.

● **Arzunuz nədir?**

● Ulu Öndər Heydər Əliyev kinonun tarixinin dəyişdirilməsi ilə bağlı bir sıra adamlara fəxri adlar verdi. O cümlədən, mən də Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görüldüm. Beş ildən sonra Polad Bülbüloğlu mənim məşğul olduğum işlərin miqyasını və əhəmiyyətinə dəyər verdi. Əməkdar incəsənət xadimi adına layiq görülməyim üçün təqdimatımı şəxsən verdi. Kinoittifaqın o vaxtkı rəhbəri Şəfiqə Məmmədova gördü ki, təqaüdə çıxsam da, gecə-gündüz işləyirəm. Mənə Prezidentin fərdi təqaüdü və evin verilməsi üçün şəxsən o, təşəbbüs irəli sürdü. Bunların müqabilində mən də borclu qalmaq istəmirəm, öz töhfəmi verməliyəm. Dövlətimiz tərəfindən göstərilən qayğının müqabilində, bu diqqətə cavab verəcək qədər iş görmək istəyirəm...

# PİLOTLARIN DANIŞIQLARINI MEDİAYA KİM ÖTÜRÜB?

Aktauda qəzaya uğrayan Azərbaycana məxsus mülki təyyarə ilə bağlı həqiqətləri manipulyasiya etmək cəhdləri müşahidə edilir. Bu məsələdə Rusiya hakimiyyətinin nəzarətində olan bəzi media orqanları fəallıq göstərir.



F.ABASOĞLU

Son günlərdə Rusiya ərazisində kənar fiziki müdaxilə və hücuma məruz qalaraq Aktauda qəzaya uğrayan Azərbaycana məxsus mülki təyyarə ilə bağlı həqiqətləri manipulyasiya etmək cəhdləri müşahidə edilir. Bu məsələdə Rusiyanın xüsusilə də hakimiyyətin nəzarətində olan bəzi media orqanları pilotların dispetçerlə danışığını yayaraq, Azərbaycanı hədəf alırlar. Bu proses idarə edən isə əli hər yerə çatan Federal Təhlükəsizlik Xidmətidir. Gah Azərbaycanı neonasistlərin dili ilə hədələyir, gah da "Komsomolskaya pravda"da bir sifarişli mirzənin vasitəsilə uydurmalar qoşur, özlərini daha da gülünc vəziyyətə qoyurlar. Bəs bu kampaniyanın başlıca məqsədi nədir?

### ƏSL İNFORMASİYA TƏZYİQİ

Əslində əsas araşdırılmalı və cavab verilməli məqam mülki təyyarənin Rusiyanın hava məkanında vurulması və kənar müdaxiləyə məruz qalması faktıdır. Görünür, bəzi qüvvələr Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli, şəffaf araşdırma tələbi fonunda hələ də həqiqətləri gizlədərək məsuliyyətdən qaça biləcəklərini düşünürlər.

Qazaxıstanlı politoloq Dimaş Aljanov "Report"a açıqlamasında bildirib ki, qəzaya uğramış təyyarəsinin pilotları ilə Rusiya hava limanlarının yerüstü xidmətləri arasında guya baş tutmuş danışıqların dərc edilməsi Qazaxıstan və Azərbaycana qarşı əsl informasiya təzyiqi aktıdır. "Ötən ilin dekabrında Bakı-Qroznı reysinin pilotları ilə yerüstü xidmətlərin deşifrə edilmiş danışıqları rəsmi təsdiqini tapmayıb. Bu cür deşifrələrin meydana çıxması araşdırmanı aparan Qazaxıstana və təyyarəsi qəzaya uğrayan Azərbaycana qarşı informasiya təzyiqi cəhdindən başqa bir şey deyil", - Aljanov bildirib.



Dimaş Aljanov

### Hesabat yanvarın sonunda açıqlanacaq

Politoloq qeyd edib ki, deşifrə edilmiş danışıqlar Rusiya isteblişmentinin müəyyən dairələrinə yaxın olduğu iddia edilən "Telegram" kanallarında yayılıb. "Qazaxıstan hökumətinə yönəlmiş təzyiqdən danışsaq, onun hansı mövqe tutacağı hələ məlum deyil. İnternetdə stenoqramın dərc edilməsindən sonra nə Qazaxıstan, nə də Azərbaycan tərəfindən hələ heç bir rəsmi şərh verilməyib", - deyə politoloq bildirib və yanvarın sonunda açıqlanacaq rəsmi hesabatı gözləməyin lazım olduğunu qeyd edib. Onun sözlərinə görə, Qazaxıstan istənilən gedişatda həm Azərbaycan, həm də Rusiya ilə normal münasibətləri qorumağa çalışacaq.

Xatırladaq ki, AZAL-a məxsus Bakı-Qroznı aviareysini həyata keçirən sərnişin təyyarəsi dekabrın 25-də Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğrayıb. Təyyarənin göyərtəsindəki 67 nəfərdən 38-i həlak olub, 29-u sağ qalıb.




# "Petkim" "İxracatın ulduzları" siyahısında birinci olub

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Türkiyədəki yatırımı olan "Petkim" neft-kimya kompleksi 2024-cü ildə Egey İxracatçı Birlikləri tərəfindən "İxracatın ulduzları" siyahısında növbəti dəfə birinci yerə layiq görülüb. Bu barədə "Report" "SOCAR Turkiye"yə istinadən xəbər verir. Məlumata əsasən, "Petkim" neft-kimya kompleksi həm ümumi sıralamada, həm də kimya sektoru kateqoriyasında bu il də liderliyini davam etdirərək böyük bir uğura imza atıb. Mükafat "Petkim"in Baş direktoru Kənan Mirzəyevə təqdim edilib.

Qeyd edək ki, əsası 1965-ci il aprelin 3-də qoyulmuş "Petkim Petrokimya Holding" Türkiyənin aparıcı neft-kimya kompleksidir. Kompleksdə plastik kütlə, tekstil məmulatları, eləcə də digər istehlak və sənaye mallarının istehsalında istifadə olunan etilen, polietilen, polivinilxlorid, polipropilen və digər neft-kimya məhsulları istehsal edilir. İndiyədək Türkiyənin ilk və yeganə inteqrasiya olunmuş neft-kimya obyekti olan "Petkim"in təkmilləşdirilməsi üzrə işlərə 1,6 milyard ABŞ dolları həcmində investisiya qoyulub.

"SOCAR Turkey" şirkəti "Petkim Petrokimya Holding"in nəzarət səhm paketinin sahibidir. "Petkim"in səhmləri İstanbul Fond Birjasında qiymətləndirilir.

# "AZERCONNECT GROUP" AZƏRBAYCANIN "ƏN YAXŞI İŞƏGÖTÜRƏN" ŞİRKƏTİ SEÇİLDİ

Ölkənin aparıcı İKT şirkəti "Azerconnect Group" nüfuzlu "Top Employers Institute" (Ən Yaxşı İşəgötürənlər İnstitutu) tərəfindən növbəti dəfə Azərbaycanın "Ən yaxşı işəgötürən" şirkəti seçilib. Bununla da "Azerconnect Group" ardıcıl olaraq üçüncü dəfə "Ən yaxşı işəgötürən" beynəlxalq sertifikatını əldə edən yeganə yerli şirkət olub.

Beynəlxalq təşkilat dünya təcrübəsindən irəli gələn 250-dən çox meyar üzrə "Azerconnect Group"un insan kapitalının idarəolunması sahəsində strategiyasını, həmçinin bu sahədə icra etdiyi innovativ layihələri dəyərləndirib və yüksək qiymətə layiq görüb. Şirkətin iş mühiti, istedadların cəlb edilməsi, öyrənmə, müxtəliflik, bərabərlik və inklüzivlik, rifah və digər




istiqamətlərdə ən son beynəlxalq insan resursları təcrübələrini və standartları tətbiq etməsi vurğulanıb.

### "TOP EMPLOYERS INSTİTUTE" HAQQINDA

"Top Employers Institute" dünyanın müxtəlif ölkələrində şirkətlərin işəgötürmə, işçi təcrübəsi və liderlik sahəsindəki fəaliyyətini qiymətləndirən və sertifikatlaşdıran beynəlxalq təşkilatdır. 30 ildən artıq bir müddətdə fəaliyyət göstərən "Top Employers Institute" 2025-ci ildə 125 ölkədə/regionda 2400-dən çox təşkilatı sertifikatlaşdırılıb. Bu sertifikatı əldə etmiş "Ən yaxşı işəgötürənlər" qlobal miqyasda 13 milyondan çox işçinin həyatına müsbət təsir göstərirlər.

### "AZERCONNECT GROUP" HAQQINDA

Ölkəmizdə dinamik şəkildə inkişaf edən İKT və yüksək texnologiyalar sahələrində fəaliyyət göstərən "Azerconnect Group" mobil, internet, beynəlxalq kanalların təşkili və FinTech, AdTech, Media/TV kimi rəqəmsal xidmətlər təqdim edir. "Azerconnect Group" müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 132
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

BU SAHƏDƏ YENİ MƏHKƏMƏ QAYDALARININ QÜVVƏYƏ MİNMƏSİ GÖZLƏNİLİR

# ALİMENT DAVASINA SON QOYULUR



**Uşağa görə aliment artıq minimum əməkhaqqının müəyyən misli ilə təyin ediləcək. Yeni qaydaların tətbiqindən sonra boşanma prosesində uşaqla ünsiyyət məsələsi də öz həllini tapacaq. Yeni bir iddianın qaldırılmasına, uzun-uzadı məhkəmə çəkişmələrinə ehtiyac qalmayacaq.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Ali Məhkəmə Plenumunun 2024-cü il 20 dekabr tarixli qərarı ilə ailə münasibətləri ilə bağlı bəzi qərarlara əlavə və dəyişikliklər edilib. Bu dəyişiklikləri Ali Məhkəmənin Mülki Kollegiyasının sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Sənan Hacıyev şərh edib. O qeyd edib ki, burada ümumi məqsəd ədalət mühakiməsinin səmərəliliyinin artırılması, vətəndaşların hüquq və azadlıqlarının daha effektiv müdafiəsi, uşaqların üstün mənafelərinin qorunması, habelə ayrı-ayrı kateqoriya işlərə baxılması üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsidir.

Məlumdur ki, boşanmalar zamanı ən böyük çəkişmələr məhz aliment və uşaqların valideyni ilə ünsiyyət məsələsində yaranır. Sözügedən dəyişikliklər bu kimi məhkəmə çəkişmələrini xüsusən də, aliment mübahisələrində məhkəmələrin iş yükünü azaldır və vətəndaşları yeni iddia qaldırmaqdan azad edir.

Bəs aliment və ünsiyyət problemi ilə bağlı mühüm yeniliklər nədir? Qərarı Vəkillər Kollegiyasının üzvü, vəkil Günay Cəfərli ilə müzakirə etdik.



### ALİMENT NECƏ MÜƏYYƏN EDİLƏCƏK?

Vəkil “Kaspi” qəzetinə açıqlamasında bildirdi ki, Ali Məhkəmə Plenumunun məlum qərarı ilə olan dəyişiklikləri aliment məbləğinin müəyyən edilməsi və uşaqla ünsiyyət hüququ olaraq iki yerə bölə bilərik.

Ən çəkişməli, sosial şəbəkələrdə daim müzakirə olunan problem aliment məsələsidir. Vəkil deyir ki, aliment artıq minimum əməkhaqqının müəyyən misli ilə təyin ediləcək: “Məlum olduğu kimi nikah pozulan zaman birgə nikah zamanı doğulan uşaqların hansı valideynin yanında qalması və hansı valideyndən uşaqlar üçün aliment tutulması məsələsi məhkəmə tərəfindən həll edilməlidir. Yeni qaydalara qədər aliment müəyyən edilən zaman Ailə Məcəlləsinə uyğun olaraq, ya sabit pul məbləği şəklində, ya da aliment tələb olunan valideynin əməkhaqqının müəyyən misli məbləğində tutulurdu. Hazırki qaydaya əsasən isə artıq sabit pul məbləğində aliment tutularkən onun məbləği konkret rəqəmlə, yəni, ölkə üzrə uşaqlar üçün nəzərdə tutulan yaşayış minimumu məbləği ilə deyil, minimum əməkhaqqının misli məbləğində müəyyən ediləcək”.

### MƏHKƏMƏ BİR UŞAĞA GÖRƏ 240 MANAT ALİMENT MÜƏYYƏN ETMƏK İSTƏYİRSƏ...

Məlumdur ki, hər il ölkə üzrə yaşayış minimumu haqqında qanun qəbul edilir, həmin qanunda da uşaqlar üçün yaşayış minimumu müəyyən edilirdi. Vəkil bildirir ki, məhkəmələr tərəfindən aliment sabit məbləğdə təyin edilən zaman həmin məbləğ nəzərə alınırdı: “Məsələn, 2024-cü ildə hər uşaq üçün yaşayış minimumu ölkə üzrə 235 manat müəyyən olunmuşdu, məhkəmələr aliment müəyyən edəndə həmin məbləği sabit pul şəklində təyin edirdilər. Ali Məhkəmə Plenumunun qeyd edilən qərarı ilə isə məhkəmə aliment məbləğini təyin edərkən minimum əmək haqqı məbləğinin misli ilə ifadə etməklə indeksasiya aparacaq. Məsələn, məhkəmə bir uşağa görə 240 manat aliment müəyyən etmək istəyirsə, onda aliment məbləğini 240 manat olaraq deyil, minimum əmək haqqı məbləğinin 0.6 misli məbləğində müəyyən edəcək. 2025-ci il üçün minimum əmək haqqı məbləği 400 manat təşkil etdiyindən, həmin məbləğin 0.6 misli 240 manat olacaq”.

## ALİMENTİN MİQDARI MİNİMUM ƏMƏKHAQQI İLƏ TƏNZİMLƏNƏCƏK

Həmsöhbətimiz deyir ki, bu cür hesablamanın aparılması o baxımdan sərfəlidir ki, əvvəllər yaşayış minimumu artdıqca, hər il valideyn aliment məbləğinin artırılması üçün yenidən iddia qaldırmaq məcburiyyətində olurdu: “Artıq aliment məbləği yaşayış minimumuna görə yox, minimum əməkhaqqı məbləğinin artımına uyğun müvafiq hesablama ilə aparıldığına görə gələcəkdə bu cür iddianın qaldırılmasına ehtiyac qalmır. Hesablama zamanı ölkədə minimum əməkhaqqı məbləği artdıqca, aliment məbləği də müvafiq indeksasiya üzrə artacaq. Bu, uşaqların mənafeyinin qorunmasına, onların xərclərinin ölkədə minimum əməkhaqqı məbləğinin artırılmasına uyğun qarşılanmasına imkan verəcək”.

Digər məsələ isə odur ki, Ailə Məcəlləsinin tələbinə görə, aliment ödəyən valideynin tələbi ilə alimentin 50 faizindən çox olmayan məbləği uşağın adına açılmış bank hesabına köçürülə bilərdi: “Buradakı dəyişiklik ondan ibarətdir ki, artıq bu proses məhkəmədə yenidən iddia qaldırmaq əsasında deyil, icra qaydasında ərizə vermək yolu ilə öz həllini tapacaq”.

### VALİDEYNLƏR ÖZ ÖHDƏLİKLƏRİNİ BİLƏCƏKLƏR

Yuxarıda da qeyd etdiyimiz kimi, ikinci mühüm dəyişiklik ünsiyyət hüququ ilə bağlıdır. Vəkil bildirir ki, valideyn əvvəllər ünsiyyət hüququnun əldə edilməsi üçün ayrıca iddia qaldırmalı idisə, yeni qaydaların tətbiqindən sonra buna ehtiyac qalmayacaq: “Himayəsinə uşaq verilməyən valideyn uşaqla görüşmək hüququna malikdir. Yeni qaydaların tətbiqindən sonra boşanma prosesində uşaqla ünsiyyət məsələsi də öz həllini tapacaq. Yeni bir iddianın qaldırılmasına, uzun-uzadı məhkəmə çəkişmələrinə ehtiyac qalmayacaq. Əvvəlki məhkəmə təcrübəsindən fərqli olaraq yeni qaydalar müəyyən edir ki, ünsiyyətlə bağlı vəzifələr icra məmurlarının üzərinə qoyulmayacaq. Valideynlər ünsiyyətlə bağlı münasibətlərdə öz öhdəliklərini biləcəklər və həmin qətnaməni könüllü şəkildə icra etməli olacaqlar. Əks təqdirdə məsuliyyət məsələsi ortaya çıxacaq. Məhkəmənin qətnaməsini icra etməyən, uşaqla ünsiyyət hüququna maneçilik törədən valideynlə bağlı məsuliyyət tədbirləri görüləcək”.

Vəkil vurğulayır ki, uşaqla ünsiyyət hüququnun müəyyən olunmasından sonra ünsiyyətin vaxtı, yeri kimi məsələlər Mülki Prosessual Məcəllənin 231-ci maddəsinə əsasən, ərizə təqdim etmək yolu ilə həyata keçiriləcək və 10 iş günü müddətinə baxılacaq. Yəni, aylarla məhkəmə prosesi, xərclər, mediasiya, vaxt itkisinə ehtiyac olmayacaq”.



Günay Cəfərli

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# TƏBİİSİ BAHA, UCUZU İSƏ ZƏRƏRLİ

Ölkəmizdə marqarin yağı istehsalı səkkiz faizdən çox artıb. Lakin ekspertlər bildirirlər ki, ən zərərli yağ elə marqarindir. Zərərli də olsa, insanlar məcbur olub ondan istifadə edirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Ötən ilin yanvar-noyabr aylarında Azərbaycanda 45 min 151,1 ton marqarin istehsal edilib ki, bu da bir il əvvələ nisbətən 8,3 faiz çoxdur. 2024-cü ilin dekabrın 1-nə ölkədə 3 min 634,8 ton duru bitki yağı ehtiyatı, 3 min 747,7 ton isə marqarin ehtiyatı yaranıb. Bu da illik müqayisədə müvafiq olaraq 5,6 faiz az və bir faiz çoxdur. Rəqəmlərdən də aydın olduğu kimi marqarin yağlarının həm istehsalı, həm də istehlakı artır. Bunun səbəbləri nələrdir? Bu yağların orqanizm üçün ziyanlı olduğu iddia edilir. Bu fikirlər həqiqəti nə dərəcədə əks etdirir?

### KƏRƏ YAĞININ BAHALAŞMASI SEÇİMLƏRƏ TƏSİR EDİR

Qida məsələləri üzrə ekspert Asim Vəlinin sözlərinə görə, marqarin orqanizmimiz üçün olduqca təhlükəlidir. Lakin insanlar bəzi səbəblərdən onu alırlar: "Kərə yağının bahalaşması istehlakçıların daha ucuz alternativlərə, xüsusilə duru bitki yağlarını və marqarini seçmələrinə səbəb olur. İqtisadi çətinliklər və istehlak vərdişləri insanların seçimlərinə birbaşa təsir edir. Marqarin kərə yağına nisbətən daha münasib qiymətədir. Xüsusilə çörəkbişirmə və qənnadı məmulatlarında geniş istifadə edilir. Marqarin yağı, xüsusilə trans yağları ehtiva edən növləri sağlamlıq üçün təhlükəlidir. Trans yağlar ürək-damar xəstəlikləri riskini artırır, "pis" xolesterolu (LDL) yüksəldir və "yaxşı" xolesterolu (HDL) azaldır. Bu yağların uzun müddətli istehlakı piylənmə, ikinci tip şəkərli diabet, hətta bəzi xərçəng növləri ilə əlaqələndirilir. Son illərdə bəzi marqarinlərdə trans yağların miqdarı azaldılsa da, bu yağlar ümumilikdə təhlükəsiz hesab olunmur".

## "Məhdud miqdarda istehlak edin"

A.Vəli bildirdi ki, marqarin yağlarının çox cüzi faydası olsa da, istifadəsi məsləhət deyil: "Ev şəraitində istifadə zamanı onu yüksək temperaturda, qızartma proseslərində istifadə etməkdən uzaq durmaq daha məqsədəuyğundur. Çünki qızartma zamanı zərərli maddələr yaranır. Əgər marqarin istifadə olunacaqsa, onu kiçik miqdarlarda və qarışıq qidalanma rejimi çərçivəsində qəbul etmək tövsiyə olunur. Marqarinin bəzi növləri vitaminlər, xüsusən də A, D və E ilə zənginləşdirilə bilir. Həmçinin bəzi bitki əsaslı marqarinlər kərə yağına allergiyası olan və ya vegan həyat tərzi sürən şəxslər üçün alternativ olaraq istifadə edilir. Sağlamlıq baxımından faydalarını zərərləri ilə müqayisə etdikdə, onu məhdud miqdarda istehlak etmək daha doğru olar".

### DİQQƏT EDİLMƏLİ MƏQAMLAR

Ekspertin fikrincə, insanlar kərə yağı əvəzinə səhvən bu yağı almamaq üçün diqqətli olmalıdırlar: "Bəzi kərə yağlarının tərkibinə də marqarin yağı qatılır və ya kərə yağı adı ilə marqarin yağı satılır. Bəzi hallarda istehsalçılar xərcləri azaltmaq məqsədilə kərə yağının tərkibinə marqarin və ya digər bitki yağlarını qarışdırırlar. İnsanlar bu hallardan qorunmaq üçün məhsulun etiketindəki tərkib hissəsini diqqətlə oxumalı, yalnız etibar edilən istehsalçıların məhsullarını seçməli və mümkün qədər yerli, tanınmış brendlərə üstünlük verməlidirlər".



Asim Vəli

## "Başqa maddələrin birləşməsindən əmələ gəldiyi üçün..."

Diyetoloq Lalə Yaqubova isə dedi ki, marqarin süni yolla müxtəlif məhsulların birləşməsindən hazırlanır: "Marqarinin yaranma səbəbi insan sayının artımı və təbii yağın bu tələbatı ödəyə bilməməsindəndir. Əhalinin tələbatını ödəmək üçün süni şəkildə yaradılmış tərkibdir. Tam təbiət məhsulu olmadığı üçün də orqanizm üçün ziyanlıdır. Marqarin əslində rəng, ləzzət, görüntü, quruluş baxımından kərə yağına çox bənzəyir. Bitki yağları, süd, qatıq, pendir suyunun tozu, su və vitamin kimi bir çox maddələr istifadə olunaraq marqarin yağı əmələ gəlir".

L.Yaqubova bu yağın növlərindən də bəhs etdi: "Başqa maddələrin birləşməsindən əmələ gəldiyi üçün marqarinin tərkibini dəyişmək mümkündür. Əsasən səhər yeməyi üçün, yemək hazırlanmasında və sənayedə istifadə üçün üç çeşidi mövcuddur. Səhər yeməyi üçün olan marqarinin ərimə temperaturu daha aşağıdır. Yemək bişirmək üçün olanlar isə daha sərtdir və daha gec əriyir. Üzərində hansı növə aid olduğu qeyd edilir. Sənayedə istifadə dedikdə, qida sənayesi nəzərdə tutulur.



Lalə Yaqubova

Bu yağlar istehsalatda olur və onu adi insanlar almır. Marketlərdə rastlaşdığımız səhər yeməyi və yemək bişirmək üçün olan növləridir".

Diyetoloqun sözlərinə görə, tərkibinə qatılan maddələr marqarini zərərli edir: "Onlar müxtəlif proseslərə məruz qalır. Hansı ki, bu yağların otaq temperaturunda qatı qalması, yaxud rəf ömrünün uzadılması üçündür. Bitki mənşəli yağlar da müxtəlif proseslərə məruz qalır. Beləliklə, daha çox doymuş yağ miqdarı olur. Marqarinlər tərkibinə görə çox sürətlə oksidləşə bilən qida növləridir. Bu səbəbdən onların saxlanılması və istifadəsi çox önəmlidir".

### "BİZİM ÜÇÜN SAĞLAM OLAN DOYMAMIŞ YAĞLARDIR"

Müsahibimiz hansı marqarin yağını seçməklə bağlı məsləhətlərini də verdi: "Bizim üçün sağlam olan doymamış yağlardır. Hansı ki, onlar əsasən maye halındadır. Bunlara da bitki yağları aiddir. Səhər yeməyi üçün olan marqarin yağları daha az kaloriyə malikdir. Bu səbəbdən onlar daha az zərərli hesab oluna bilər. Amma istifadə etməmək daha məsləhətdir".

# Plastik cərrahiyyədə ANARXİYA DÖVRÜ



**Plastik cərrahlarla bağlı yaşanan son qalmaqal bu sahədə ciddi problemlərin olduğunu bir daha təsdiqləyir. Hətta fəaliyyəti qadağan olunan həkimlərin də işlərinə davam etmələri ilə bağlı məlumatlar var.**

SEVİNC ABBASOVA

Azərbaycanda plastik cərrahiyyə sahəsində hərc-mərclik hökm sürür. Plastik cərrahlarla bağlı yaşanan son qalmaqal bu sahədə ciddi problemlərin olduğunu bir daha təsdiqləyir. İctimaiyyət arasında gedən müzakirələr onu deməyə əsas verir ki, ixtisası olmayan həkimlər bu sahədə at oynadırlar. Hətta fəaliyyəti qadağan olunan həkimlərin də işlərinə davam etmələri ilə bağlı məlumatlar var.

Bəs görəsən, mövcud problemin aradan qaldırılması üçün hansı addımların atılması mümkündür? Bu istiqamətdə Səhiyyə Nazirliyin mövqeyi nədən ibarətdir? Bununla bağlı müvafiq araşdırmalar aparılıbmı? İxtisası olmayan həkimlərin estetik cərrah kimi çalışması hüquqi cəhətdən hansı məsuliyyəti yaradır?

### "MEYDANDA PEŞƏKARLAR QALACAQ"

Azərbaycan Plastik Cərrahlar Assosiasiyasının sədri, plastik və estetik cərrah Vaqif Qələndər "Kaspi"yə açıqlamasında bildirib ki, plastik cərrahiyyə Azərbaycan üçün yeni bir sahədir: "Sovet dövründə bu, ümumi cərrahiyyənin daxilində idi. Yəni, yanıqları, üzdə yaranan problemləri, anadagəlmə qüsurları və sair ümumi cərrahlar əməliyyat edirdi. Rezidentura proqramı hazırlandıqdan sonra artıq plastik cərrahiyyə yeni bir sahə kimi ayrıldı. Hazırda ixtisaslı plastik cərrahiyyə üzrə mütəxəssislər beş il müddətinə hazırlanır. Həkimlər plastik cərrah işləmək üçün mütləq rezidentura təhsili almalıdırlar. Belə deyək ki, plastik cərrahiyyə artıq konkret sahədir. Sertifikasiyadan keçməyənlər isə ümumiyyətlə, həkim adı altında fəaliyyət göstərməməlidir. Bu sahədə qeyri-qanuni işlərlə məşğul olanlarla aidiyyəti qurumlar ciddi şəkildə mübarizə aparmalıdırlar".

Assosiasiya sədrinin sözlərinə görə, Azərbaycanda plastik cərrahiyyə keçid dövrünü yaşayır: "Bu proses qonşu Türkiyədə də belə gedib. Dünyanın bir çox ölkələrində plastik cərrahiyyə ilə kosmetologiyanı qarışdırıblar. Məsələn, bəzi tibbi təhsili olmayan insanlar kosmetoloji prosedurlar həyata keçirirlər. Buna "padvalaltı kosmetologiya" deyilir. Bir çox ölkələrdə, o cümlədən bizdə də mövcuddur. İndi bu istiqamətdə silkələnmə baş verdi, artıq hər şey yerinə oturmalıdır. Keçid dövrü başa çatandan və ələnmə prosesi yekunlaşandan sonra meydanda peşəkarlar qalacaq".

## UCUZ REKLAMIN QURBANINA ÇEVRİLƏNLƏR

Mütəxəssis hesab edir ki, sosial şəbəkələrdə də müəyyən qadağaların tətbiq olunması vacibdir: "Pasiyentlər bu sahədə həkim seçərkən diqqətli olmalı, ucuz reklamlara aldanmamalıdırlar. Pasiyentlər həkimə müraciət edərkən onun diplomunu tələb etməli, plastik cərrah olub-olmadığını araşdırmalıdırlar. Bundan başqa, sertifikasiyadan keçib-keçmədiyini öyrənməlidirlər. Son vaxtlar plastik cərrahiyyələrlə bağlı şikayətlərin artmasının əsas səbəblərindən biri məhz bu sahədə qeyri-peşəkar insanların qanunsuz fəaliyyət göstərməsidir. Pasiyentlər onları haradan tapırlar? Təbii ki, sosial şəbəkələrdən. Bu gün sosial şəbəkələr naşı plastik cərrahların reklamları ilə "göz oxşayır". Onlar səhifələrində hətta özlərinə məxsus olmayan əl işlərini paylaşmaqdan da çəkinmirlər. Nəticədə insanlar ucuz reklamın qurbanı olurlar".



Vaqif Qələndər

### 10 AYDA 15 QAYDA POZUNTUSU

Mövzu ilə bağlı Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzindən sorğumuza cavab olaraq bildirilib ki, cərrahların çalışdığı müəssisələrdə tibbi xidmətin göstərilməsinə nəzarət Səhiyyə Nazirliyinin müvafiq qurumları tərəfindən plan üzrə, həmçinin daxil olan şikayət və təqdimatlar əsasında digər qurumlarla birlikdə plandankənar yoxlamalar şəklində aparılır: "Nəzarət tədbirləri zamanı nöqsanlar aşkar olunduqda müvafiq qanunvericilikdə nəzərdə tutulan qaydada inzibati tənbeh tədbirləri (inzibati cərimə) görülür, təkrar aşkar edildikdə əlavə tədbirlər həyata keçirilir. Xüsusi ağır hallarda, həmçinin ölüm faktları zamanı isə bu məsələ məhkəmə-tibbi ekspertizası və hüquq-mühafizə orqanlarının səlahiyyətinə keçir. Belə ki, təkcə 2023-cü il ərzində aparılan planlı və plandankənar yoxlamalar əsasında müxtəlif müəssisələrdə 22 inzibati cərimə tətbiq olunub. 2024-cü ilin 10 ayı ərzində yoxlamalar zamanı 15 qayda pozuntusu aşkar olunub və bu haqda inzibati tənbeh tədbirləri görülüb".



## HƏKİMDƏN SERTİFİKATI TƏLƏB EDİN

Mərkəzdən o da vurğulanıb ki, həkimlər beş ildən bir sertifikasiyadan keçirlər: "Hər bir pasiyentin müraciət etdiyi həkimin sertifikatını tələb etmək hüququ var. Həkim həmin sertifikatı təqdim etməzsə, o zaman vətəndaş bizə müraciət edə bilər".

Yeri gəlmişkən, Səhiyyə Nazirliyinin plastik cərrahlara müraciət edib. Ölkə ərazisində praktik tibb fəaliyyəti ilə məşğul olan plastik cərrahlar peşə fəaliyyətinin qanunauyğunluğunu təsdiq edən sənədlərinin notariat qaydasında təsdiq edilmiş surətlərini (baza ali tibb təhsili, diplomdansonrakı təhsilə aid bütün sənədlər, əmək kitabçası, tibbi fəaliyyət ilə məşğul olmağa buraxılma barədə şəhadətnamə, sertifikasiya şəhadətnaməsi və s.) yanvarın 31-ə kimi Səhiyyə Nazirliyinə şəxsən təqdim etməlidirlər. Əks təqdirdə, bu, praktik tibb fəaliyyəti ilə məşğul olmağa buraxılma barədə şəhadətnamə və ya sertifikasiya şəhadətnaməsinin ləğvi üçün əsas olacaq.

### 10 MİNDƏN 30 MİN MANATADƏK CƏRİMƏ

Hüquqşünas Ruslan Vəliyev deyib ki, ölkəmizdə tibbi fəaliyyət lisenziyalaşdırılmış fəaliyyət növü hesab edilir: "Məlumdur ki, həkimlər müəyyən müddətdə yenidən sertifikasiya imtahanı verməklə öz ixtisaslarında çalışırlar. Müəssisələr də tibbi fəaliyyət göstərdikləri zaman mütləq tibbi təhsili olan və sertifikatlaşdırma imtahanından keçən ali təhsilli həkimlər və tibb işçiləri ilə əmək müqaviləsi bağlamaqla öz fəaliyyətlərini tənzimləməlidirlər. Lisenziya olmadan fəaliyyət göstərənlər məsuliyyətə cəlb edilirlər. Fiziki şəxslər iki min manatdan üç min manata, vəzifəli şəxslər beş min manatdan 10 min manata, hüquqi şəxslər isə 20 min manatdan 30 min manatadək cərimə olunurlar.

Bu sahədə vətəndaşların sağlamlığının qorunması ilə bağlı qanunvericiliyin pozulmasına görə də İnzibati Xətalar Məcəlləsinin 215-ci maddəsinə əsasən, fiziki şəxslər 300 manatdan 500 manata, vəzifəli şəxslər 800 manatdan 1000 manata, hüquqi şəxslər isə altı min manatdan səkkiz min manatadək məbləğdə inzibati qaydada cərimə olunurlar".

# CƏBRAYILDAN ABŞ-YƏ UZANAN YOL

ABŞ-də yaşayan və fəaliyyət göstərən azərbaycanlı xanəndə Aqil Süleymanov nüfuzlu mükafatlara layiq görülüb. Sənətçi bu il ABŞ-nin müxtəlif ştatlarında 10-a yaxın musiqi proqramına qatılmağı planlaşdırır.

MAHMUD RÖVŞƏNOĞLU

Bir müddətdir ABŞ-də yaşayan və fəaliyyət göstərən azərbaycanlı xanəndə Aqil Süleymanov 2025-ci ildə ABŞ-nin müxtəlif ştatlarında 10-a yaxın musiqi proqramına qatılacaq. Bu barədə sənətçi özü məlumat verib. Bu yaxınlarda Aqil Onlayn Beynəlxalq Vivaldi Musiqi müsabiqəsində iki mükafat qazanıb. Belə ki, o, vokal sahəsi üzrə "Peşəkar" və "Milli musiqi" kateqoriyalarında əsas mükafata layiq görülüb. Qeyd edək ki, xanəndə sözügedən müsabiqəyə ötən il müraciət edib. Dahi bəstəkarın xatirəsini yad etmək üçün təsis edilən Vivaldi Beynəlxalq Musiqi Müsabiqəsi onun musiqi irsini qorumaq məqsədi daşıyır. Qaliblər həmçinin, Vivaldi onlayn sosial media platformasında yer almaq imkanı əldə edirlər. Bu, Aqilin mükafat qazandığı sayca ikinci nüfuzlu beynəlxalq musiqi müsabiqəsidir.



Aqil Süleymanov Nyu-Yorkdakı Linkoln Mərkəzinin Bruno Valter zalında IV Beynəlxalq Bəstəkarlar Müsabiqəsinin qala-konsertində çıxış edir.



Aqil Süleymanov amerikalı musiqi meneceri Qlen Dolfi ilə...



Aqil Süleymanov tar ifaçısı Rüstəm Müslümov və kamança ifaçısı Elvin Novruzovla tədbirdə...

### "LIT MUSIC AWARDS" BEYNƏLXALQ MUSİQİ FESTİVALINDA İKİ MEDAL

Xanəndə daha öncə ABŞ-də təşkil olunan "LIT MUSIC AWARDS" Beynəlxalq Musiqi Festivalında iki medal qazanıb. Nüfuzlu müsabiqədə "Ninne yarım" mahnısını təqdim edən xanəndəmiz "Ən yaxşı kişi ifaçısı" kateqoriyası üzrə qızıl medala, "Ən yaxşı xalq musiqisi" kateqoriyasında isə gümüş medala layiq görülüb. İlk uğurlarından stimul alan xanəndə onlayn musiqi yarışlarında iştirakını davam etdirməyi düşünür. Aqil Süleymanov ötən il Zəfər Günü Nyu-Yorkun böyük musiqi səhnələrindən biri olan "Linkoln Mərkəzi"ndə Əməkdar artist, professor Nərgiz Əliyarova ilə bir səhnəni bölüşüb. Sənətçi 2025-ci ilin fevral ayından Nyu-Yorkdakı "Hunter Kollec"də master-klass dərslərinə başlamağı planlaşdırır. O, professor Corc Mürerlə bərabər ABŞ-də "Leyli və Məcnun" operasını səhnələşdirmək niyyətindədir.

### CƏBRAYIL – SAATLI – BAKI

Məlumat üçün qeyd edək ki, Aqil Məhəmməd oğlu Süleymanov 1992-ci ildə Cəbrayıl rayonunun Qalacıq kəndində anadan olub. 1993-cü ildə Ermənistanın Azərbaycana təcavüzü nəticəsində ailəsi müvəqqəti olaraq Saatlı rayonunda məskunlaşmağa məcbur olub. Beş ildən sonra isə Bakıya köçüblər. Aqil ilk musiqi təhsilini 2001-2004-cü illərdə paytaxtda "28 May" Mədəniyyət Evində alıb. 2005-ci ildən isə təhsilini Bülbül adına Orta İxtisas Musiqi Məktəbində xanəndə, muğam ustası Firuz Səxavətin sinfində davam etdirib. 2011-ci ildə Azərbaycan Milli Konservatoriyasına (bakalavr pilləsi) qəbul olunub. Burada Xalq artistləri Səkinə İsmayılova, Mələkxanım Əyyubova və Nəzakət Teymurovadan dərs alıb. 2015-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində magistr təhsili almağa başlayıb. Burada da Xalq artisti Mələkxanım Əyyubovadan dərs alaraq muğamın sirlərinə yiyələnib. Magistr təhsili ilə yanaşı Aqil eyni zamanda müəllimlik fəaliyyətinə də həvəs göstərib. O, 2016-cı ildə müəllimlərin işə qəbulu üzrə müsabiqəsində uğurlu nəticə göstərərək Ağdam Xan Şuşinski adına Uşaq Muğam Musiqi Məktəbinə müəllim vəzifəsinə qəbul olunub. Burada təxminən il yarım pedaqoji fəaliyyətlə məşğul olub.

*Cənab Dolfi dedi ki, videoları Texasda keçirilən populyar musiqi festivalına (South by Southwest) göndərəcək və nəticə yaxşı olsa, məni ABŞ-yə dəvət edəcək. Belə də oldu...*

### AMERİKALI MUSİQİ MENECERİNDƏN GƏLƏN ŞAD XƏBƏR

Aqilin oxumaq həvəsi onu hər zaman yeni yaradıcılıq uğurlarına sövq edirdi. Bu barədə özü belə xatırlayır: "2013-cü ildə Azərbaycan Milli Konservatoriyasının üçüncü kursunda təhsil alırdım, Qlen Dolfi adlı amerikalı musiqi meneceri fransız rejissorla birlikdə Azərbaycana gəlmişdi. Həmin il Konservatoriyamızda onlar tərəfindən bir neçə videomaterial çəkildi. Hətta Xalq artistləri Alim Qasımov, Natiq Şirinov, Ramiz Quliyev və mən də daxil olmaqla, bir neçə gəncin ifalarını lentə aldılar. Cənab Dolfi dedi ki, videoları Texasda keçirilən populyar musiqi festivalına (South by Southwest) göndərəcək və nəticə yaxşı olsa, məni ABŞ-yə dəvət edəcək. Belə də oldu... Bir neçə aydan sonra xəbər gəldi ki, sizin ifanızı çox bəyəniblər. Beləcə ABŞ-yə gəldik".

Aqil Süleymanovla söhbətimizi burada yekunlaşdırdıq. Həmyerlimizin yeni yaradıcılıq uğurları ilə bağlı növbəti müsahibələrimizdə məlumat vermək ümidi ilə...



Aqil Süleymanov Xalq artisti Alim Qasımovla bərabər ABŞ-də konsertdə...

# AZƏRBAYCAN KİNOSUNUN ALEN DELONU

## "Eldar Quliyev komandasına qarşı çox diqqətli və qayğıkeş olmağa çalışırdı. Xüsusən qadınlara münasibətində qeyri-adi dərəcədə nəzakətli idi".



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

O, Azərbaycanın kino salnaməsinə yeni səhifələr bəxş edib, milli kinomuzun tarixində həmişə sevilərək baxılan filmlər yadigar qoyub. Gənc kinematoqrafların yetişməsində mühüm rol oynayan "Debüt" studiyasını yaradıb. Mədəniyyət və İncəsənət Universitetinin kino kafedrasının professoru kimi gənclərin yetişməsində böyük rol oynayıb. Azərbaycan Professional Kinorejissorlar Gildiyasının fəxri prezidenti kimi audiovizual müəlliflərin yaradıcı və sosial hüquqlarının qorunmasını təmin etmək üçün çalışıb.

Görkəmli kinorejissor Eldar Quliyev milli kino sahəsindəki xidmətlərinə görə ən yüksək dövlət təltiflərinə layiq görülüb. Sənət dostları üçünsə o, həmişə sadə, səmimi və qayğıkeş insan olub.

Həmkarları 18 yanvar- doğum günü ərəfəsində rejissoru böyük ehtiramla andılar.

### "O, DESPOT REJİSSOR DEYİLDİ"

"Eldar Quliyev Azərbaycan kinosunda xüsusi xidmətləri olan rejissordur. Onun filmləri göz qabağındadır: tamaşaçı məhəbbəti, tamaşaçı marağı hər şeyi izah edir"- deyə Xalq artisti Rasim Balayev xatırlayır: "Mənim onunla ilk işim "Babək"də oldu. Eldar müəllimlə işləmək çox maraqlı idi. O, despot rejissor deyildi, aktyorla məsləhərləşirdi. Əgər aktyor onu öz variantına inandırırdısa, qəbul edirdi. O, aktyorlara, ümumiyyətlə çəkiliş meydançasındakı bütün insanlara böyük qayğı və diqqətlə yanaşırdı. Rejissor kimi nə istədiyini bildirirdi, biz də çalışırdıq ki, onun istədiyini yerinə yetirək. "Babək" filmi təkcə Eldar Quliyevə şöhrət gətirmədi, mənim və filmdə çəkilən digər aktyorun həyatında da böyük rol oynadı".

### "ELDAR QULİYEVİ TEZ-TEZ YUXUDA GÖRÜRƏM"

"Eldar Quliyevi tez-tez yuxuda görürəm. O, nəinki mənim, hamının ürəyində iz qoyub", - deyə rejissorun filmlərinin ikinci rejissoru Akif Rüstəmov danışır: "O, bizim üçün həm qardaş, həm dost, həm müəllim idi. Böyük xoşbəxtlik oldu ki, Eldar Quliyev 1978-ci ildə məni "Babək" filminə dəvət etdi. Belə bir tarixi filmi çəkmək asan deyildi. Filmi Moskvada təhvil verəndə "Siz bu filmi necə çəkmisiniz?"- deyə məəttəl qaldılar. "Gərək "Mosfilm"in rejissorlarına da nümayiş etdirək, baxsınlar ki tarixi filmləri necə çəkmək lazımdır" dedilər. Film hər gün 3-4 seans olmaqla dalbadal doqquz gün kinoteatrda nümayiş olundu. "Babək" milyonlarla tamaşaçı topladı. Mən 25 il Eldar Quliyevlə birlikdə işlədim. O, hamımıza "siz mənim ailəmin üzvüsünüz" deyirdi".

### "HEÇ SƏNİ ROLDA TƏRİFLƏYƏNDƏ BELƏ SEVİNMİRSƏN"

"Gəncədə - "Nizami" filminin çəkiliş meydanında Eldar müəllimin qızı ilə olan münasibətini görəndə gözüm yaşarmışdı", - deyə Xalq artisti Həmidə Ömərova xatırlayır: "Bu, Eldar müəllimin gözündən qaçmadı. Mənə yaxınlaşaraq "nə oldu, obraz haqqında fikirləşirsən?" deyə soruşdu. Dedim ki, həm obraz haqqında düşünürəm, həm də yaxşı mənada həsəd aparıram ki, qızınızın sizin kimi atası var: istedadlı, qayğıkeş, mehriban... Eldar Quliyev çəkiliş meydanında hədsiz sərt idi, amma aktyorları elə səfərbər edirdi ki, obrazlarımızı daha yaxşı oynayırdıq. Onun gözəl insani keyfiyyətləri vardı. Kənardan baxanda uca dağ idi. Hamımız ətrafına yığışıb, balaca ulduzlar böyük bir günəşə baxan kimi ona baxırdıq". H.Ömərova heç vaxt unutmadığı xatirəsini danışır: "Şəhərkənarı gəzinti" filmini adada çəkirdik. Filmin ikinci adı "Burulğan"dır. Biz adada ay yarım qaldıq və filmi ekstremal vəziyyətdə çəkdik. Səhər saat altıdan axşam səkkizədək çəkiliş meydanında idik. Bir gün nahar fasiləsində Eldar müəllim "bezdim bu yeməklərdən. Bilirsiniz könlümə nə düşdü? Kartof qızartması, həm də şit yağda" deyə bildirdi. Mən də kartof qızartdım. Eldar müəllim yedi və "bilmirəm adadandır, ya havadandır, ömrümdə belə dadlı kartof qızartması yeməmişdim" deyə təşəkkür etdi. Bu, mənim üçün böyük tərif idi, sevincdən uçurdum. Elə bil ki, rejissor mənim sənətkarlığımı qiymətləndirmişdi. O, sevincimi hiss edib "heç səni rolda tərifləyəndə belə sevinmirsən", - deyə güldü. Eldar müəllim komandasına qarşı çox diqqətli və qayğıkeş olmağa çalışırdı. Xüsusən qadınlara münasibətində qeyri-adi dərəcədə nəzakətli idi. Biz ona "Azərbaycan kinosunun Alen Delonu" deyirdik. O, rejissor olmasaydı, çox yaxşı aktyor olardı".



H.Ömərova xatırlayır: "Sonuncu dəfə Eldar müəllimi bir tədbirdə gördüm. Çox qocalmışdı, əlində əsa vardı. Amma gözləri yenə gözəl idi: parıldayan, yaşamaq eşqi ilə canlanan, insana baxanda qəlbini oxuyan, dərin mənalı gözləri..."

### "ONUN YERİ BOŞ QALIB"

Kinoşünas Ayaz Salayev deyir ki, məhz E.Quliyevin sayəsində film çəkməyə başlayıb: "Moskvada oxuyanda məndə film çəkmək istəyi yarandı. Bakıya qayıdanda artıq Eldar müəllim "Debüt"ü açmışdı. Mənim bədii film çəkmək üçün ssenarim vardı, amma çox zəif idi. Eldar müəllim mənə Sara Tağıyeva haqqında sənədli film çəkməyi təklif etdi. Bu filmlə Sara xanım həmişəlik tarixdə qalıb. O filmi mən çəksəm də, Eldar müəllimin təşəbbüsü idi. Bunu heç vaxt yaddan çıxarmıram. Çox alicənab bir insan idi. Onun yeri boş qalıb. Bugünkü kinoda gedən prosesləri onunla müzakirə etməyə çox ehtiyac var..."

### "İNTELLEKTUAL SƏVİYYƏLİ, MİLLİ RUHLU ZİYALI"

Kinorejissor və aktyor Əbdül Mahmudov Eldar Quliyevi intellektual səviyyəli, milli ruhlu bir insanı kimi xatırlayır: "Kinomuzun həmişə belə ziyalılara ehtiyacı olub. Məhz belə rejissorlar kinomuzun incilərini yaradıblar". Ə.Mahmudov deyir ki, E.Quliyevlə çəkiliş meydançasında olmaq böyük bir bayram idi: "Onunla işləyəndə evə getmək yada düşmürdü. Çəkiliş qrupunu elə səfərbər edirdi ki, kinodan başqa hər şeyi unudurdun. Təəssüf ki, bu gün kinomuzda Eldar Quliyev, Rasim Ocaqov, Həsən Seyidbəyli, Əlisəttar Atakişiyev kimi rejissorlar yoxdur!"

Kaspi İDMAN
ÜÇ ƏSRİN QƏZETİ
18 YANVAR ŞƏNBƏ 2025




# BEŞ MİLYONLUQ GEDİŞ

Juninyonun “Flamenqo”ya gedişi “Qarabağ” üçün də, Azərbaycan futbolu üçün də böyük hadisədir. Futbolçunu üzə çıxaran, bu səviyyəyə çatdıran məhz Ağdam klubudur. Onun Azərbaycana gəlib buradan böyük məbləğ qarşılığında gedişi transfer bazarında “Qarabağ”ın əl-qolunu açacaq.

Azərbaycanda qış fasiləsinin əsas hadisəsi Olavio Juninyonun “Qarabağ”dan Braziliyanın “Flamenqo” klubuna transferidir. İlk dəfə klublarımızdan biri bu səviyyədə satış həyata keçirir. Əlbəttə, bu keçidi “Qarabağ” üçün itki hesab edənlər də az deyil və onları haqsız adlandırmaq olmaz. Lakin detallı təhlil etdikdə dəqiqləşir ki, transferdən həm klub, həm də oyunçunun özü irəli düşür.




JUNİNYO VƏ XANIMI

**QISA MÜDDƏTDƏ PARILDAYAN ULDUZ**

Juninyo “Qarabağ”a 2023-cü ilin yayında Portuqaliyanın “Şaveş” klubundan transfer olundu. Həmin zaman Ağdam təmsilçisi qarşı tərəfə 450 min avro ödəmişdi. Ötən mövsüm Azərbaycan çempionu və ölkə kubokunun qalibi olan forvard hər iki turnirdə ən məhsuldar oyunçu oldu. O, eyni zamanda Çempionlar Liqasının təsnifat mərhələlərində altı dəfə fərqlənərək hər kəs üçün əlçatmaz idi. Ümumilikdə Juninyo “Qarabağ”ın heyətində 81 oyun keçirdi, 41 qol və 14 assistə imza atdı. Ötən mövsüm Avropa Liqasının 1/8 final mərhələsində “Bayer”lə oyunlarda parlayan forvard “Qarabağ”ın Avropaya səs salmasında böyük pay sahibi olmuşdu. İki matçda iki qol vurub bir məhsuldar ötürmə edən Juninyonun Bakıdakı qarşılaşmada vurduğu top hələ də tez-tez sosial şəbəkələrdə paylaşılır.

**REKORD SATIŞ**

“Qarabağ”ın avrokuboklarda performansı komandanın oyunçularına marağı artırıb. Son illərdə bir neçə oyunçu Azərbaycan üçün kifayət qədər böyük qiymətə satılıb. Onlardan ən bahalısı Kadi Borgesin Rusiya “Krasnodar”ına keçidi idi. Juninyonun “Flamenqo”ya keçidi bunun davamı kimi götürülə bilər. Braziliyalılar forvard üçün beş milyon avro ödəyəcəklər. Düzdür, bu məbləğ tam həcmdə “Qarabağ”ın büdcəsinə daxil olmayacaq. Məsələ burasındadır ki, Juninyonun əvvəlki klubu “Şaveş”lə (Portuqaliya) anlaşmaya əsasən, növbəti transfer məbləğinin 15 faizi bu kluba çatmalıdır. Beləliklə, portuqallar 750 min avrolarını alacaqlar. Lakin hər bir halda dörd milyon avrodan artıq vəsait “Qarabağ”ın büdcəsinə daxil olacaq. Üstəlik, növbəti satışdan da “atlılar”ın pay alması istisna edilmir.

## BRAZİLİYA MİLLİSİNƏ APARAN YOL

Bu qış Juninyonun Braziliyaya deyil, İspaniyaya köçəcəyi gözlənilirdi. Əslində, o, Azərbaycandan “Böyük beşlik” liqasına reallaşan ilk transfer olmalı idi. La Liqa təmsilçisi “Sevilya” futbolçuya maraq göstərirdi. Hətta bu səviyyədə klubdan təklif aldığı üçün Juninyonun fikrini tam olaraq “Qarabağ”a yönəldə bilmədiyi deyilirdi. Baş məşqçi Qurban Qurbanov özü də bu məqamı etiraf etmişdi. Lakin tərəflər maliyyə məsələlərində ortaq məxrəcə gələ bilmirdilər. Sonradan “Qarabağ” satışa razılığını versə də, bu dəfə də Juninyo fikrini dəyişdi.

Juninyo transferini “Flamenqo”nun baş məşqçisi Filipe Luis şəxsən özü istəyib. Mütəxəssis futbolçuya zəng edərək onu komandasına keçməyə razı salıb. Braziliya təmsilçisi “sambaçı”ya “Sevilya”dan daha yüksək məvacib təklif edib. Ölkəsinin yığma komandasında oynamaq vədi isə Juninyonun seçimində həlledici olub. Məlumata görə, Filipe Luis oyunçuya “Flamenqo”da oynayacağı təqdirdə Braziliya millisinə çağırılmaq ehtimalının yüksək olduğunu deyib. Ulduzlarla dolu yığmaya düşmək ilk baxışdan çox real görünməsə də, mümkünsüz deyil. “Flamenqo” bu yolda iri addımdır. Son illər Braziliya millisi hücumun mərkəzində problemlər yaşayır. Hazırda “Flamenqo”dan yığmaya üç oyunçu dəvət alır. Heyətdə möhkəmlənə biləcəyi və performansını ortaya qoyacağı təqdirdə, Juninyo üçün də bu, əlçatan olacaq.




KADİ BORGES

## “QARABAĞ”I NƏ GÖZLƏYİR?

Ümumən, Juninyonun “Flamenqo”ya gedişi “Qarabağ” üçün də, Azərbaycan futbolu üçün də böyük hadisədir. Futbolçunu üzə çıxaran, bu səviyyəyə çatdıran məhz Ağdam klubudur. Onun Azərbaycana gəlib buradan böyük məbləğ qarşılığında gedişi transfer bazarında “Qarabağ”ın əl-qolunu açacaq. Klub cəlb etmək istədiyi yeni oyunçulara məhz Juninyonu nümunə göstərə biləcək. Bəli, onun gedişi komanda üçün böyük itkidir. Hər nə qədər bu mövsüm ötən illə müqayisədə performansında düşüş olsa da, Juninyo komandanın hücum xəttinin lideri idi və yoxluğu hiss olunacaq. Komanda onun gedişindən sonra oyun üslubunu da müəyyən qədər dəyişməli olacaq. Çünki Juninyo elə profildə oyunçu idi ki, həm komandanın hücum quruculuğunda xüsusi rol oynayır, həm pressinq prosesində iştirak edir, həm də əks-hücumlara effektivlik qatırdı. Bu boşluğu aradan qaldırmaq, Juninyo səviyyəsində oyunçu tapmaq asan olmayacaq.

Digər tərəfdən, “Qarabağ” artıq belə gedişlərə öyrəşib. Klubun kifayət qədər yaxşı skaut fəaliyyəti var. Kadi komandanı tərk edən zaman onun boşluğunun doldurulmasının çətin olduğu deyilirdi - Juninyo tapıldı. İndi Olavionun gedişindən sonra yeni kadilər, juninyolar üzə çıxarılmalıdır.

Yekun olaraq, Juninyo Azərbaycan çempionatına gəlmiş ən yaxşı hücumçulardan biri, bəlkə də birincisi idi. Burada göstərdiyi performansı ilə azarkeşlərin qəlbinə yol tapan forvard gedən zamanda komandaya böyük qazanc verməyi bacardı. “Qarabağ” isə artıq oyunçu satışından pul qazanmağı bacarır. Bu, Azərbaycanın ümumi futbol sənayesinə qoşulması üçün kiçik, amma vacib addımdır.





QURBAN QURBANOV